QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 218 (5690) **17 noyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# "Qeyri-neft sektorunun inkişafı əsas məqsəddir"

*Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfər edib*




Səh 2

Akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ" kitabı: bilinməyən həqiqətlərin tarixi təsdiqi



6

Azərbaycan postsovet məkanında istehlak qiymətlərinin ən az artdığı ölkələrdəndir



7

Bakıda Azərbaycan Gənclərinin VIII Forumu keçirilib



5

Seymur Orucov: "Gənclər Forumu görülmüş işlərin hesabatıdır"



7

Fransa ikibaşlı oyunundan əl çəkmir



8

2019-cu ilin dövlət büdcəsinin ən üstün cəhətlərindən biri sosialyönümlü olmasıdır



10

7

Bəhruz Quliyev: "Bəzi məhkəmələr jurnalistlərə qapalıdırlar"



8

"Fransanın davranışları BMT Nizamnaməsinin VI və VII fəsillərində yer alan prinsiplərə tamamilə ziddir"



16

"Bavariya" Zidanla danışıqlara başlayıb



# “Qeyri-neft sektorunun inkişafı əsas məqsəddir”

## *Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfər edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt şəhərinə səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu. Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov şəhərdə görülən işlər haqqında dövlətimizin başçısına məlumat verdi. Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.***




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkının rezidenti inşaat kimyəviləri zavodunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə iqtisadiyyat naziri Şahin Mustafayev Prezident İlham Əliyevə Sumqayıt Kimya Sənaye Parkında görülən işlər, parkın rezidentləri barədə məlumat verdi. Bildirildi ki, 2013-cü ildə dövlətimizin başçısının iştirakı ilə təməli qoyulmuş Sumqayıt Kimya Sənaye Parkında ötən müddətdə intensiv tikinti-quraşdırma işləri aparılıb, köhnə bina və qurğular sökülüb, müvafiq infrastruktur yaradılıb.

Zavodun baş direktoru Adəm Yayla Prezident İlham Əliyevə müəssisə haqqında məlumat verdi. İnşaat kimyəviləri zavodu






1910-cu ildə yaradılan və dünyanın 100-ə yaxın ölkəsində müəssisələri fəaliyyət göstərən İsveçrənin “SİKA AG” şirkətlər qrupuna daxildir. Son 18 ildə şirkətə dünya miqyasında beton konstruksiyalarının təmiri ilə bağlı 100-ə qədər layihənin icrası həvalə olunub. Struktur birləşdirmə, birbaşa şüşələmə, akustik və gücləndirici sistemlər, avtomobillərə xidmət, o cümlədən avtomobil şüşələrinin əvəzlənməsi, avtomobil gövdəsinin təmiri, dəniz gəmiləri, sənaye laminasiyası, texnika, bərpa olunan enerji və fasad mühəndisliyi sahələri bu şirkətin fəaliyyət istiqamətinə daxildir. Şirkətin məhsullarının əsas tətbiq sahələri kommersiya məqsədli nəqliyyat vasitələri sənayesi, məişət cihazları və sənaye komponentləri, sənaye məqsədli laminasiya, bərpa olunan enerji sənayesi, mexaniki emal və kompozitlər, həmçinin dəniz sənayesidir. Sonra Prezident İlham Əliyev zavodu işə saldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan “Baku Non Ferrous and Foundry Company” MMC-nin əlvan metallar və ferroərintilər zavodunun açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, “Baku Steel Company” Məhdud Məsuliyyətli Cəmiyyətinin müşahidə şurasının sədri Rasim Məmmədov Prezident İlham Əliyevə əvvəlcə yaxın gələcəkdə inşası planlaşdırılan layihənin üçüncü fazası, yəni fasonlu tökmə zavodunun tikintisi barədə məlumat verdi.

Bildirildi ki, bu zavodda maşınqayırmada, kənd təsərrüfatında, dağ-mədən sənayesində istifadə olunan məhsullar istehsal ediləcək. Bu məhsullar arasında yayma valları, 3D printer vasitəsilə hazırlanan detallar, dəyirman kürələri, müxtəlif növ maşın avadanlıqları üçün detallar var. Zavodun illik istehsal gücünün 12000 ton olması nəzərdə tutulub.

Dövlətimizin başçısına Daşkəsən rayonundakı dəmir-filiz yataqlarından istifadə edilməklə Gəncədə böyük metallurgiya zavodunun tikintisi ilə bağlı da məlumat verildi. Artıq tikinti ilə bağlı texniki işlər yekunlaşıb. Qeyd edildi ki, Daşkəsəndəki yataqlarda yeni geoloji işlər və ehtiyatların qiymətləndirilməsi aparılıb. Prezident İlham Əliyev əlvan metallar və ferroərintilər zavodunu işə saldı.

Zavodda İtaliya texnologiyası əsasında ildə 50 min ton ferrosilisium və 72 min ton ferrosilikomanqan istehsal ediləcək. Məhsullar daxili bazarın tələbatını tam ödəməklə yanaşı, xaricə də ixrac olunacaq. Bu zavodda Azərbaycan tarixində ilk dəfə olaraq ferrosilisium, ferrosilikomanqan və gələcəkdə ferroxrom da istehsal ediləcək. Bu ferroərintilərin istehsalı yüksək temperaturda manqan filizindən və kvarsitdən karbon tərkibli maddələrin vasitəsilə müvafiq olaraq manqan və silisium elementinin bərpasına və onların dəmirlə birləşmə yaradaraq kristallaşmasına əsaslanır. Ferroərintilərin istehsalı üçün lazım olan komponentlər elektrik qövslü sobada əridilərək çalovlar vasitəsilə konveyerdə qəliblərə tökülür və müvafiq fraksiyalar şəklində hazır məhsul əldə edilir. İstehsal olunmuş məhsul avtomatik paketləmə maşınında 1 tonluq kisələrə qablaşdırılır.

Zavodda ekoloji tələblərə uyğun, mükəmməl konstruksiyalı qaz-toz təmizləyici qurğu işə salınıb. Qaz-toz tutucu qurğuda isə istehsal prosesi zamanı ayrılan uçucu maddələr və qazlar xüsusi filtrlər vasitəsilə tutularaq təmizlənir və bərk hissəciklər islatma üsulu ilə xüsusi konveyerlərdən keçirilərək dənəvarı hala salınır. Bundan sonra həmin maddələr kisələrə yığılaraq qablaşdırılır. Bu məhsul həm satıla, həm də təkrar istehsal prosesinə qaytarıla bilər. Bütün bu maddələrdən təmizlənmiş hava kütləsi filtrlərdən keçdikdən sonra ekoloji normativ tələblərə uyğunlaşdırılır, daha sonra atmosferə buraxılır.

**Ardı Səh. 3**

# “Qeyri-neft sektorunun inkişafı əsas məqsəddir”

## *Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfər edib*







Əvvəli-Səh-2

Burada istehsal olunan məhsulun keyfiyyəti bir çox beynəlxalq standartlara, o cümlədən QOST və İSO-ya uyğunlaşdırılıb. Zavodda sınaqlar quru və yaş, spektrometr vasitəsilə müxtəlif üsullarla yoxlanılır. Məhsulun keyfiyyəti spektral təhlil və kimyəvi üsulla analiz olunur. İnvestisiya dəyəri 51 milyon dollar olan zavodda 230 nəfər işlə təmin olunacaq. Zavod 2016-cı ilin fevralında rezident kimi qeydiyyata alınıb. Layihənin əsas təyinatı metallurgiya sənayesində son məhsulun istehsalı üçün tələb olunan ferroərintilərin lazımi səviyyədə təmin edilməsi və həmin sənaye sahəsinin idxaldan asılılığının nisbətən aradan qaldırılmasıdır. Dövlətimizin başçısı müəssisənin istehsal prosesi ilə tanış oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkında “Tabaterra” Qapalı Səhmdar Cəmiyyətinin tütün məmulatları istehsalı fabrikinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, “Tabaterra” QSC-nin direktoru Elman Cavanşir dövlətimizin başçısına burada yaradılan şərait barədə məlumat verdi.

Qeyd olundu ki, zavod ötən il parkda rezident kimi qeydiyyata alınıb. Burada 3 formatda olmaqla beynəlxalq standartlara uyğun siqaret istehsal ediləcək. Fabrik məhsullarını “Made in Azerbaijan” brendi altında istehlakçılara təqdim edəcək. Böyük Britaniya, Almaniya və İtaliya texnologiyaları əsasında qurulan fabrikdə il ərzində 11 milyard ədəd 3 növdə filtrli siqaretlər istehsal ediləcək. Bu isə ölkənin tütün məmulatlarına olan tələbatının 80 faizini ödəyəcək. Ümumilikdə, fabrikdə 13 brendin 80 çeşiddə məhsulunun istehsalı nəzərdə tutulur. Burada “Tabaterra”nın hər biri 6 çeşiddə “Senate”, “Kingston”, “Argo” adları altında məhsulu istehsal ediləcək. Bundan başqa, “British American Tobacco”, “Japan Tobacco International”, “Imperial Tobacco” şirkətlərinin məhsulları da lisenziya əsasında müəssisədə istehsal olunacaq. Bu şirkətlərin siqaretləri indiyədək ölkəmizə idxal edilirdi. Beləliklə, bu layihə Azərbaycanda yerli istehsalın inkişafına xüsusi təkan verməklə yanaşı, xaricdən idxalın, eyni zamanda, tütün məhsullarının alınması üçün sərf olunan valyuta axınının azalmasına imkan yaradacaq.

Fabrik beynəlxalq standartlara uyğun istehsal olunacaq məhsullarını müxtəlif formatlarda və qiymət seqmentlərində istehlakçılara təqdim edəcək. Burada istehsal prosesi beynəlxalq keyfiyyət standartlarına tam uyğun olaraq aparılacaq. Ümumi dəyəri 48 milyon dollar olan layihə çərçivəsində 200 yeni iş yeri yaradılıb.

Dövlətimizin başçısı müəssisəni işə saldı.

Sonra Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkındakı müəssisələrin kollektivlərinin nümayəndələri ilə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında əmin olduğunu vurğulayıb ki, bu müəssisələr çox səmərəli işləyəcək və ölkə iqtisadiyyatına böyük töhfə verəcək. Dövlət başçısı qeyd edib ki, bu müəssisələr ən yüksək standartlara cavab verir və bizim sənaye potensialımızı böyük dərəcədə möhkəmləndirən müəssisələrdir:

“Ferroərintilər, inşaat kimyəvi qatqılar zavodları, siqaret fabriki bu gün fəaliyyətə başlayır. Birinci mərhələdə bu müəssisələrdə 400-dən çox iş yeri yaradılıb, gələcəkdə isə iş yerlərinin sayı 700-ə çatacaq. Mənə verilən məlumata görə, bugünkü mərhələdə siqaret fabrikinə 35 milyon dollar, ferroərintilər zavoduna 25 milyon dollar və inşaat materialları zavoduna isə 3,5 milyon dollar sərmayə qoyulub. Ancaq indi təqdimatda deyildi ki, siqaret fabrikinə bundan sonra da əlavə vəsait qoyulacaq və investisiya həcmi təxminən 50 milyon dollara çatacaq, ferroərintilər zavoduna isə 100 milyon dollar investisiya qoyulacaqdır. Yəni, bu, onu göstərir ki, vaxtilə Sumqayıt Kimya Sənaye Parkının yaradılması ilə bağlı qərar düzgün və vaxtında qəbul edilmiş qərar idi.

Mən 2011-ci ilin sonunda müvafiq Fərman imzaladım və biz parkın yaradılmasına start verdik. Bu ərazidə vəziyyət çox acınacaqlı idi. Vaxtilə tikilmiş və dağılmış, avadanlığı paslanmış müəssisələrin qalıqlarını təmizləmək, torpaq qatını yaxşılaşdırmaq, rekultivasiya işləri aparmaq böyük səy və vəsait tələb edirdi. Ondan sonra kommunikasiya və infrastruktur layihələri icra edildi, 500 hektardan çox ərazi tamamilə təmizləndi və özəl sektorun sərəncamına verildi. Bu, dövlətin özəl sektora göstərdiyi dəstəyin növbəti təzahürüdür. Bu, onu göstərir ki, dövlət-özəl sektor tərəfdaşlığı Azərbaycanda ən yüksək səviyyədə təşkil edilir.

Hazırda Sumqayıt Kimya Sənaye Parkında 18 rezident var, 9 müəssisə fəaliyyətdədir. Bu il 5 müəssisə fəaliyyətə başlayacaq. Onlardan 3-ü bu gün fəaliyyətə başlayır. Gələn il əlavə 4 müəssisə fəaliyyətə başlayacaq və beləliklə, bu parkda ən müasir standartlara cavab verən 18 müəssisə fəaliyyət göstərəcək.

Sumqayıt Kimya Sənaye Parkı, əslində, şəhər içində bir sənaye şəhəridir. Gələcəkdə parkın hüdudları genişləndiriləcək və təbii ki, yeni rezidentlər qəbul ediləcəkdir. On səkkiz müəssisə tam gücü ilə işləyəndən sonra 6 min iş yeri təmin ediləcəkdir. Əlbəttə ki, Sumqayıt şəhərində işsizliyin bundan sonra da aşağı səviyyədə saxlanması üçün bu parkın çox böyük əhəmiyyəti var. Ümumiyyətlə, bu günə qədər Sumqayıt Kimya Sənaye Parkının yaradılmasına, müəssisələrin fəaliyyətə başlamasına 2,2 milyard dollar sərmayə qoyulub və növbəti dövrdə bu rəqəm təxminən 3 milyard dollara çatacaqdır. Əgər biz bu parkı yaratmasaydıq və sahibkarlara güzəştli şərtlər təqdim etməsəydik, dövlət tərəfindən böyük dəstək göstərməsəydik, bu vəsait də qoyulmayacaqdı və iş yerləri də yaradılmayacaqdı. Ona görə biz Sumqayıt Kimya Sənaye Parkının timsalında uğurlu sənaye siyasətimizi görürük və bu siyasət bundan sonra da davam etdiriləcək.

Təsadüfi deyil ki, bu ilin 10 ayında ölkəmizin qeyri-neft sənayesi 10 faiz artmışdır. Bu, çox gözəl göstəricidir. Kənd təsərrüfatı 5 faiz artmışdır. Sumqayıt Kimya Sənaye Parkında əlbəttə ki, sənaye müəssisələri fəaliyyət göstərir, ancaq onların bəziləri kənd təsərrüfatına sıx bağlı olan müəssisələrdir, o cümlədən siqaret fabriki. Mən əminəm ki, bu fabrikin fəaliyyəti nəticəsində Azərbaycanda tütünçülüyün inkişafı daha yüksək templərlə gedəcək. Biz tütünçülüyü bərpa edirik, əgər keçən il 3 min ton quru tütün yığılmışdısa, bu gün artıq 4500 ton yığılıb və 5 min tonu keçəcək. Əlbəttə ki, gələcəkdə bu fabrikdə bizim yerli tütündən daha da böyük həcmdə istifadə olunacaq. Yəni, bu, kənd təsərrüfatına böyük təkan verir.

Ardı Səh. 4

## *Rəsmi xronika*

Prezident İlham Əliyev “Azərbaycan Respublikası Vergilər Nazirliyi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Sumqayıt şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Sumqayıt şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi və abadlıq-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Sumqayıt şəhərində avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

# "Qeyri-neft sektorunun inkişafı əsas məqsəddir"

## Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfər edib







Əvvəli-Səh-3

Sumqayıt Kimya Sənaye Parkında hazırda əyirici boyaq fabrikinin tikintisi davam edir. Bu da xalçaçılığın inkişafına böyük təkan verəcək. Xalçaçılıq indi inkişaf edir, 30 xalça fabrikinin yaradılması nəzərdə tutulur. Xalçaçılığın əsas xammalı yun və ipəkdir. İndi yun tədarükü mərkəzləri yaradılır, baramaçılığa böyük təkan verilib. Şəki ipək kombinatı böyük həcmlə işləyir, fermerlər baramadan böyük gəlir əldə edirlər. Yəni, sənayenin və kənd təsərrüfatının inkişafı paralel şəkildə getməlidir, bir-birini tamamlamalıdır, bir-birinə dəstək verməlidir və biz bunu görürük. Eyni zamanda, əlbəttə ki, bizim əsas məqsədimiz qeyri-neft sektorunu inkişaf etdirmək, idxaldan asılılığı aradan götürmək və qeyri-neft ixracını artırmaqdır və biz burada bunu görürük. Siqaret fabriki tam gücü ilə işləyəndən sonra burada ildə 11 milyard ədəd siqaret istehsal olunacaqdır. Bu gün verilən məlumata görə, daxili tələbat 14 milyarddır. Əminəm ki, bu fabrik idxalı tam əvəzləyəcək. Çünki hazırda yerli istehsal var və gələcəkdə ixrac imkanları da geniş olacaq. Mən istərdim ki, daxili tələbat sıfır səviyyəsində olsun, insanlar siqaret çəkməsinlər, bu pis vərdişdən uzaq olsunlar. Əminəm ki, görülən tədbirlər, o cümlədən qanunvericilikdə atılan addımlar nəticəsində biz bu məqsədə çatacağıq. İstərdim ki, bu siqaret fabriki 100 faiz ixrac məhsulları istehsal etsin. Ancaq bu, hələ ki, mümkün deyil. Biz vətəndaşları keyfiyyətli yerli siqaretlə təmin etməliyik. Lakin, eyni zamanda, hamı, ilk növbədə, dövlət çalışmalıdır ki, Azərbaycanda siqaret çəkənlərin sayı minimum səviyyəyə ensin. Çünki ixrac bizə əlavə valyuta gətirir, əlavə imkanlar yaradır. O cümlədən ferroərintilər zavodunda istehsal olunacaq məhsulun 90 faizi ixraca gedəcək, 10 faiz isə Azərbaycan müəssisələrində yenidən emal olunaraq hazır məhsula çevriləcəkdir.

Qeyri-neft sektorunun inkişafı, qeyri-neft ixracının artırılması əsas məqsəddir. Bu ilin 10 ayında bizim qeyri-neft ixracımız 12 faiz, ümumi ixracımız isə 37 faiz artıbdır. İxrac artdıqca bizim iqtisadi vəziyyətimiz daha da yaxşılaşır. Bu, makroiqtisadi sabitliyə, manatın məzənnəsinə müsbət təsir göstərir. Təsadüfi deyil ki, Azərbaycanda makroiqtisadi sabitlik çox yaxşı səviyyədədir, inflyasiya on ayda cəmi 2,4 faizdir. Bu müəssisələrin yaradılması yerli və xarici investorlar üçün növbəti bir siqnaldır ki, gəlsinlər Azərbaycana sərmayə qoysunlar. Bu yaxınlarda Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan deyə bilərəm ki, tarixi nailiyyət əldə edib, dünya miqyasında biznes mühitinə görə 25-ci yerdə qərarlaşıb. Keçən il biz 57-ci yerdə idik. Yəni, belə bir böyük irəliləyiş əlbəttə ki, aparılan islahatların məntiqi nəticəsidir. "Doing Business" hər bir yerli və xarici investor üçün əsas amillərdən biridir ki, o ölkəyə pul qoyulsun, yoxsa yox. "Doing Business" hesabatı, belə gözəl müəssisələrin yaradılması, Azərbaycanda ümumi vəziyyət, sabitlik, inkişaf əlbəttə ki, xarici və yerli investorları daha da stimullaşdırır. Təsadüfi deyil ki, son 15 il ərzində ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulubdur." Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıta səfəri çərçivəsində Dəmir Yolu Vağzalı Kompleksinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Sumqayıt dəmir yolu stansiyasının tikintisi, Bakı dairəvi, Ləki-Qəbələ, Astara-Astara dəmir yolu xətlərinin çəkilişi ilə bağlı görülən və bundan sonra layihələrdə nəzərdə tutulan işlər barədə dövlətimizin başçısına məlumat verdi. Üçmərtəbəli Sumqayıt Dəmir Yolu Vağzalının sahəsi 5,5 min kvadratmetrdir. Binada gözləmə zalı, bilet kassaları, məlumat bürosu, server otağı, əşyaların saxlanması kamerası yaradılıb və yaxın günlərdə burada ticarət mərkəzinin istifadəyə verilməsi planlaşdırılır. Bundan əlavə, stansiyada 7 yol yenidən qurulub və çəkilmiş dəmir yollarının ümumi uzunluğu 5 min 20 poqonmetrdir. Kompleksdə 12 yol dəyişən quraşdırılıb, uzunluğu 43 metr olan yeraltı piyada keçidi və platformaya yeraltı çıxış keçidi inşa edilib.

Sonra Prezident İlham Əliyev Sumqayıt-Bakı marşrutu üzrə hərəkət edən sərnişin qatarı ilə Bakıya gəldi. Bakı Dəmir Yolu Vağzalına gələn Prezident İlham Əliyev burada 2016-cı ildən bəri alınmış yeni sərnişin qatarları, lokomotivlər və müxtəlif dəmir yolu texnikalarına baxdı. "EVOLUTİON" seriyalı teplovoz Qazaxıstan istehsalıdır və saatda 120 kilometr sürətlə hərəkət edir. Sabit cərəyanla işləyən lokomotiv isə Gürcüstanda istehsal olunub və sürəti saatda 100 kilometrdir. Dövlətimizin başçısına "Alstom Transport" ikisistemli sərnişin lokomotivi də təqdim olundu. Bu lokomotiv sabit, həmçinin dəyişən cərəyanla işləyir və saatda 160 kilometr sürətlə hərəkət edir. Bütövlükdə Avstriya, Rusiya, Çexiya və digər ölkələrdən alınan yeni lokomotiv və avadanlıqlar təmir-tikinti və istismar proseslərinin tamamilə avtomatlaşdırılmasına və mexanikləşdirilməsinə imkan yaratmaqla dəmir yollarında daşımaların təhlükəsizliyini gücləndirəcək, xüsusilə də sərnişinlərə xidməti daha yüksək səviyyəyə qaldıracaq. Sonda xatirə şəkli çəkdirildi.

# Bakıda Azərbaycan Gənclərinin VIII Forumu keçirilib

***Noyabrın 16-da Bakı Konqres Mərkəzində "Cümhuriyyətin varisləri - Azərbaycanın gələcəyi" devizi altında Azərbaycan Gənclərinin VIII Forumu keçirilib. AZƏRTAC xəbər verir ki, Forumda dövlət və hökumət rəsmiləri, o cümlədən Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi - Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, gənclər və idman naziri Azad Rəhimov, Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Tahir Süleymanov, Milli Məclisin deputatları, gənclər təşkilatlarının rəhbərləri, ölkəmizin müxtəlif zonalarından Foruma nümayəndə seçilmiş gənclər, idmançılar, hərbçi gənclər iştirak ediblər.***



Tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb. Sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.






Birinci vitse-prezidentin köməkçisi - Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev Azərbaycan Prezidenti İlham Əliyevin Forum iştirakçılarına təbrik məktubunu oxuyub.

Sonra Azərbaycan Gənclərinin VII Forumundan ötən müddətdə ölkəmizdə gənclər sahəsində həyata keçirilən tədbirlər barədə hazırlanan videoçarx nümayiş etdirilib.



Tədbirdə çıxış edən gənclər və idman naziri Azad Rəhimov VIII Forumun ölkəmiz üçün əlamətdar tarixdə - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin qeyd olunduğu ildə keçirilməsindən məmnunluğunu bildirib. Nazir deyib ki, 1996-cı ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə keçirilmiş Azərbaycan Gənclərinin Forumu ölkə gənclərinin Azərbaycanın gələcəyi olması ilə bağlı ciddi göstəriş və mesaj idi. İlk Forumdan ötən 22 ildə gənclərin həyatında mühüm dəyişikliklərin olduğunu qeyd edən A.Rəhimov diqqətə çatdırıb ki, 1994-2003-cü illər Azərbaycanda gənclərin oyanış və təşkilatlanma dövrü olub. Məhz bu dövrdə ilk gənclər təşkilatları yarandı. Əməkdaşlığın genişlənməsi, məsuliyyətin artması nəticəsində Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının yaradılması gənclərin iştirakına, sosial təşəbbüskarlığına mühüm təkan verdi. Bundan sonra yerli idarələr vasitəsilə regionlardakı gənclərlə iş aparılmağa başlanıldı.

Diqqətə çatdırılıb ki, 2004-2010-cu illərdə - gənclərin ictimai savada yiyələnmə dövründə onların maraqlarının təmin olunması sahəsində ciddi işlər görülüb, Azərbaycan gənclərinin beynəlxalq əməkdaşlığı artıb. 2007-ci ildə ölkədə "Gənclər ili" elan olunub, 2008-ci ildə Azərbaycanın birinci xanımı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın fəxri sədrliyi ilə Gənclərin Məşğulluğu üzrə IV Dünya Sammiti, Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadası keçirilib. Prezident İlham Əliyevin bəyan etdiyi "Qara qızılın insan kapitalına çevrilməsi" prinsipi istiqamətində həyata keçirilən tədbirlərin ən böyük təsiri məhz gənclərə olub.

Nazir bildirib ki, gənclər siyasətində 2004-cü ildən yeni inkişaf dövrü başlanıb, bu sahənin maddi-texniki bazası möhkəmlənib. Dövlət büdcəsindən gənclər sahəsinə ayrılan vəsait on il ərzində yüz dəfəyədək artıb. 2005-ci və 2011-ci illərdə Azərbaycan gəncləri ilə bağlı ardıcıl olaraq iki dövlət proqramı qəbul edilib.

2011-2017-ci illərin gənclərin yüksək iştirakçılıq mərhələsi və Azərbaycan gənclər siyasəti təcrübəsinin beynəlxalq səviyyədə tanınması dövrü kimi dəyərləndirildiyini deyən nazir bildirib ki, bu illər, həmçinin gənclərə dövlət dəstəyinin ən sürətlə artdığı dövr olub. Artıq dövlət proqramlarının icrasında, beynəlxalq əməkdaşlığın inkişafında, Azərbaycan maraqlarının xaricdə müdafiəsində gənclər və gənclər təşkilatları daha yüksək fəallıq göstərməyə başlayıblar.

Bildirilib ki, dövlət proqramlarının icrası nəticəsində əsaslı yeniliklər baş verib - Gənclər Fondu yaradılıb, gənclər siyasətinin əsas infrastrukturu olan Gənclər Evi şəbəkəsi genişlənib, Gənclər üçün Prezident Mükafatı təsis olunub.

Bu illərdə əldə olunan uğurlar arasında "Gəncə - 2016-cı ilin Avropa paytaxtı", Virtual Qarabağ İKT Mərkəzinin layihələrini, Dünya Skaut Təşkilatının 41-ci Dünya Konfransının Azərbaycanda keçirilməsini, "Mən azərbaycanlıyam" milli intellektual televiziya yarışmasını və "Müasir Azərbaycan gənci" gündəlik televiziya proqramını qeyd edən nazir bununla yanaşı, yaradıcı gənclərin II və III forumlarının, kompüter oyunları üzrə müsabiqələrin, gənc alimlərin Avropa və dünya konfranslarının təşkilini, "İstedadların hazırlığı laboratoriyası"nı, milli intellektual oyunları və s. layihə və tədbirləri qeyd edib.

**Ardı Səh. 6**

# Bakıda Azərbaycan Gənclərinin VIII Forumu keçirilib



**Əvvəli-Səh-5**

Milli Məclisin gənclər və idman komitəsinin sədri Ülvi Quliyev Azərbaycanda gənclər siyasətinin dövlətin həyata keçirdiyi siyasi kursun prioritet istiqamətlərindən olduğunu bildirib. Cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclərin ölkə həyatının bütün sahələrində fəal iştirak etdiklərini vurğulayan komitə sədri deyib ki, gənclərimiz dövlətimizin dəstəyi ilə mühüm yerli və beynəlxalq tədbirlərdə uğurla çıxış edir, ölkəmizi beynəlxalq aləmdə uğurla təbliğ edirlər. Bu tədbirlər Azərbaycan gənclərinin dünyagörüşünün, fəallığının artmasında, onların beynəlxalq əlaqələrinin inkişafında mühüm rol oynayıb.

Diqqətə çatdırılıb ki, müstəqilliyin bərpasından indiyə kimi Azərbaycanda gənclər sahəsində mühüm uğurlar əldə olunub. Bu uğurların əsas səbəbi dövlət gənclər siyasətinin təməlinin sağlam zəmində formalaşdırılması olub. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu dövlət gənclər siyasəti bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Dövlətimizin başçısının bu sahəyə yüksək diqqət və qayğısı nəticəsində ölkəmizdə gənclərin inkişafı ilə bağlı mühüm dövlət proqramları və strategiyaları qəbul olunub, Gənclər mərkəzləri, Gənclər evləri, Olimpiya İdman kompleksləri istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov dövlət gənclər siyasətinin muxtar respublikada da uğurla həyata keçirilməsi nəticəsində əldə olunan uğurlardan danışıb. Bildirilib ki, muxtar respublikada gənclərin problemlərinin həlli, onların məşğulluğu, yaradıcı təşəbbüslərinin reallaşdırılması, gənclər arasında sağlam həyat tərzinin təbliği məsələlərinə xüsusi diqqət yetirilir.

Muxtar respublika əhalisinin 140 min nəfərini (30,8 faiz) gənclərin təşkil etdiyini deyən A.Cabbarov bildirib ki, gənclərin vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir, onların muzeylərə, tarixi abidələrimizə ekskursiyaları təşkil olunur. Bu gün əldə olunan uğurlar bu sahəyə yüksək diqqət və qayğının göstəricisidir.

Naxçıvan Muxtar Respublikasında gənclərin fiziki inkişafının, sağlamlıqlarının qorunması, bədən tərbiyəsi və idmanın kütləviliyinin artırılması baxımından görülən işlərdən danışan A.Cabbarov vurğulayıb ki, muxtar respublikada bu imkanlardan bəhrələnən gənclərin sayı 40 minə yaxındır. Bu diqqətin nəticəsidir ki, naxçıvanlı idmançılar yerli və beynəlxalq turnirlərdə böyük uğurlar qazanırlar. Naxçıvanlı idmançılar il ərzində ümumilikdə 172, o cümlədən ölkə birinciliklərində 84, beynəlxalq turnirlərdə 83, Avropa çempionatlarında 3, dünya çempionatlarında 2 medal qazanıblar.

Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov çıxışında ölkəmizdə gənclərin bilik və bacarıqlarının inkişafı, onların təşəbbüs və layihələrinin dəstəklənməsi istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, Azərbaycan gənclərə göstərilən xidmət və yaradılan şərait baxımından dünyanın ən qabaqcıl ölkələrindəndir. Azərbaycan, həmçinin BMT-nin "İnsan İnkişafı İndeksi"ndə də dünyada ilk sıralardadır.

Dövlətimizin başçısının diqqət və qayğısı nəticəsində ölkəmizdə digər qurumlar kimi, Gənclər Fondunun da bu sahədə səmərəli fəaliyyət göstərdiyini vurğulayan F.Cəfərov Prezident İlham Əliyevin Sərəncamı ilə Fondun fəaliyyət dairəsinin və səlahiyyətlərinin genişləndirilməsinin gənclər üçün yeni imkanlar yaratdığını diqqətə çatdırıb. Bildirib ki, yaradılan imkanlardan bəhrələnən gənclərimiz ən müasir biliklərə yiyələnərək ölkəmizi beynəlxalq arenada uğurla təbliğ edir, dövlətimizin inkişafına mühüm töhfə verir, Vətənimizin keşiyində ayıq-sayıq dayanırlar.

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (GTMŞ) sədri Məryəm Məcidova sıralarında 127 təşkilatın birləşdiyi qurumun ötən dörd ildəki fəaliyyətinin yekunları barədə məlumat verib. M.Məcidova bu tədbirlər arasında Azərbaycan Könüllülük Xidməti, "Xətdə", BMT ilə birgə reallaşdırılan "Gənclər daha yaxşı gələcək uğrunda", "Nifrət nitqinə yox" və s. layihə, kampaniya və proqramların uğurla reallaşdırıldığını bildirib. Diqqətə çatdırılıb ki, beynəlxalq əlaqələrin inkişafına xüsusi diqqət yetirən Şura Avropa Könüllülük Xidməti, "ERASMUS+" proqramları üzrə, eləcə də Avropa Gənclər Fondu və digər qurumlarla səmərəli əməkdaşlıq etdiyini deyib. Bildirib ki, Şura son dörd ildə 150-yə yaxın beynəlxalq tədbirdə ölkəmizi təmsil edib.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov Azərbaycan gəncliyinin bugünkü inkişafının, əldə etdiyi mühüm uğurların əsasında ulu öndər Heydər Əliyevin diqqət və qayğısının, uzaqgörənliklə əsasını qoyduğu dövlət gənclər siyasətinin yüksək səviyyədə reallaşdırılmasının dayandığını deyib. Qeyd olunub ki, bu yüksək diqqət və qayğı nəticəsində gündən-günə inkişaf edərək ən müasir tələblərə cavab verən Azərbaycan gəncləri ölkəmizi beynəlxalq təşkilatlarda, tədbir və forumlarda uğurla təmsil edirlər. Təsadüfi deyil ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə irəli sürülən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində bir sıra ölkələr və beynəlxalq qurumlar Xocalı soyqırımını tanıyıb.

Sonra Dünya Skautlar Təşkilatının icraçı direktoru Əhməd Əlhəndavinin və BMT baş katibinin gənclər üzrə xüsusi elçisi xanım Cayatma Vikramanayakenin Azərbaycan Gənclərinin VIII Forumunun iştirakçılarına videomüraciətləri dinlənilib.

Videomüraciətlərdə Azərbaycan dövlətinin dünyada gənclər siyasətinin inkişafına mühüm töhfələr verdiyi xüsusi vurğulanıb. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda gənclərin inkişafı, onların beynəlxalq əlaqələrinin genişləndirilməsi üçün əlverişli şərait yaradılıb. Videomüraciətlərdə Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq konfrans və forumların dünyada gənclər hərəkatının inkişafında rolu yüksək qiymətləndirilib.

Fasilədən sonra zona toplantılarından Foruma seçilmiş nümayəndə heyətlərinin rəhbərləri təmsil etdikləri bölgələrdə görülən işlər barədə hesabat məruzələri ilə çıxış ediblər. Həmçinin müxtəlif sahələri təmsil edən gənclərin, eləcə də aparıcı gənclər təşkilatlarının rəhbərlərinin və təmsilçilərinin çıxışları dinlənilib. Yekunda tədbirin qətnaməsi və VIII Forumun iştirakçılarının adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edilib.

Müstəqil Azərbaycan Gənclərinin ilk Forumu ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı il fevralın 2-də keçirilib. 1997-ci il fevralın 1-də Forumun ildönümü münasibətilə bir qrup gənci qəbul edən ulu öndər Heydər Əliyev ilk Forumun keçirildiyi 2 fevral tarixinin Azərbaycan Gəncləri Günü kimi qeyd olunması haqqında Fərman imzalayıb. Forum Azərbaycanın müasir ictimai-siyasi tarixində layiqli yer tutaraq dövlətin gənc nəslin hərtərəfli inkişafına yönəlmiş strategiyasına mühüm təkan verib. Sonuncu - VII Forum 2014-cü il iyunun 2-də Heydər Əliyev Sarayında keçirilib.



# Akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ" kitabı: bilinməyən həqiqətlərin tarixi təsdiqi



***Noyabrın 16-da AMEA-nın Fəlsəfə İnstitutunun təşkilatçılığı ilə Mərkəzi Elmi Kitabxanada akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix" kitabının Livanda ərəb dilində nəşrinin təqdimatı keçirilib.***

AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində çıxış edən AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix" kitabının bu yaxınlarda Livanın paytaxtı Beyrut şəhərində "Delta" Dərin Araşdırmalar Mərkəzində nəşr edildiyini bildirib. Qeyd edib ki, bu qiymətli əsər bir çox dillərə, o cümlədən fransız, ingilis, türk, rus dillərinə tərcümə olunub. Kitabı ərəb dilinə əlcəzairli tədqiqatçı, professor Zəim Xənişlavi tərcümə edib. Tərcüməçinin öyrənilən problemə bələdliyi ərəb oxucusuna Qarabağ problemini aydın şəkildə başa düşmək imkanı verib.

Tədbirdə AMEA-nın Fəlsəfə İnstitutun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə, Milli Məclisin deputatı Bəxtiyar Əliyev, deputat, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu çıxış ediblər.

Bildirilib ki, kitabda Azərbaycan və Ermənistan arasında hələ də davam edən münaqişənin əsasını təşkil edən tarixi problemdən danışılır. Müəllif problemi tarixi mənbələr əsasında oxucuya izah etməklə bir çox qaranlıq məqamlara aydınlıq gətirir, mürəkkəb məsələlərin həllini göstərən koqnitiv strategiya təqdim edir.

Qədim tarixi dövrlərə, orta əsrlərə, yeni və müasir tarixə aid mənbələrə istinadla yazılmış bu kitabda münaqişənin yaranma səbəbləri öyrənilir, daha sonra Azərbaycan tarixinin çoxəsrlik dövrlərində Dağlıq Qarabağ ərazisinin mülkiyyəti sənədlər əsasında izah olunur. Həmçinin kitabda demoqrafik inkişaf, Dağlıq Qarabağın azad edilməsi üçün silahlı müqavimətin başlanması məsələləri tədqiq edilir, Minsk qrupunun təşkilatçılığı ilə aparılan danışıqlar prosesi, bu vilayətdə mövcud olan vəziyyətə beynəlxalq qurumların münasibəti məsələləri oxucunun diqqətinə çatdırılır.

Kitab oxucuya problemin mahiyyətinə varmağa, münaqişənin səbəb və nəticələrini görməyə imkan verir, müasir tarixşünaslıq və politologiyada "Ermənistan və Azərbaycan arasında Qarabağ münaqişəsi" adlandırılan problemi obyektivliklə öyrənməyə başlayan hər kəsə kömək edir. Qarabağ vilayətinin tarixinin anlaşıqlı üslubda təqdim olunması oxucuya imkan verir ki, o, tarixi sənədləri çox vaxt xarakterizə edən rəsmi-quru üslubu başa düşmək əziyyətindən xilas olsun. Bu baxımdan belə bir kitabın ərəb dilinə tərcümə edilməsi ərəb oxucusunun problemlə əlaqəli bir çox həqiqəti başa düşmək işini asanlaşdırır.

# "Hüquqi dövlət quruculuğunun mühüm məsələləri sırasında KİV-in məhkəmə hakimiyyəti ilə münasibətləri xüsusi yer tutur"





**_Azərbaycanda söz, mətbuat və ifadə azadlığı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Dövlətimizin başçısının diqqət və qayğısı ilə ölkəmizdə mətbuatın sərbəst fəaliyyəti üçün hər cür şərait yaradılır. İctimai maraqlara cavab verən və müsbət qarşılanan bu yanaşmalar insan, vətəndaş hüquq və azadlıqlarının etibarlı təmin olunmasını şərtləndirir._**

Hüquqi dövlət quruculuğunun mühüm məsələləri sırasında KİV-in cəmiyyətdə rolu və onların məhkəmə hakimiyyəti ilə münasibətləri xüsusi yer tutur. Kütləvi informasiya vasitələri ictimai fikir ilə yanaşı, cəmiyyətdə hüquq mədəniyyətinin də formalaşdırılmasında mühüm rol oynayır. Məhkəmələr cəmiyyətdə hüquq münasibətlərinin tənzimləyicisi rolunu oynayır, vətəndaşların maraqlarının tarazlaşdırılmasına xidmət göstərir, həmçinin dövlətin mənafeyinin təminatçısı kimi çıxış edir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər noyabrın 16-da Ali Məhkəmədə KİV nümayəndələri ilə keçirilən görüşdə səsləndirilib.

Ali Məhkəmənin sədri Ramiz Rzayev KİV nümayəndələrinə ədalət mühakiməsinin əsas prinsipləri barədə məlumat verərək bildirib ki, məhkəmələrin ictimaiyyətlə işinin ən yaxşı forması məhkəmə proseslərinin qanuna müvafiq, yüksək peşəkarlıqla aparılmasıdır. Məhkəmələrin fəaliyyəti ilə bağlı məlumat əldə edərək onu ictimaiyyətə çatdırmaq mətbuatın vəzifəsi olduğu kimi, məhkəmə hakimiyyətinin də ədalət mühakiməsinə etimadın artırılması məqsədilə kütləvi informasiya vasitələrində əhalinin hüquqi maarifləndirilməsinə ciddi ehtiyacı var.

Ali Məhkəmənin sədri vurğulayıb ki, mətbuat ilə məhkəmənin dialoqu son dərəcə zəruridir. Kütləvi informasiya vasitələrinin məhkəmə orqanları ilə əməkdaşlığının əsasında cəmiyyətdə insan hüquqlarının müdafiəsi sahəsində baş verən hadisələri nəzarətdə saxlamaq məqsədi dayanır. Ədalət mühakiməsini həyata keçirən və hər kəsin qanunla müəyyənləşdirilmiş hüquq və azadlıqlarının qorunması vəzifəsini yerinə yetirən məhkəmə hakimiyyəti KİV-lərlə daim əməkdaşlıq etməkdə maraqlıdır. Məhkəmə hakimiyyəti jurnalistlərlə əməkdaşlıq zamanı həm də müəyyən mənada "izahedici və öyrədici" funksiyanı yerinə yetirir. Məhkəmənin fəaliyyətinin kütləvi informasiya vasitələrində obyektiv işıqlandırılması vətəndaş cəmiyyətinin və hüquqi dövlətin inkişafının zəruri şərtidir.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov qeyd edib ki, məhkəmə hakimiyyəti ədalət mühakiməsini həyata keçirən və hər kəsin qanunla müəyyənləşdirilmiş hüquq və azadlıqlarını qoruyan hakimiyyət orqanı kimi KİV ilə sıx əməkdaşlıq edir. Bu münasibətlərin sistemli xarakter alması və cəmiyyətin mənafeyi baxımından belə görüşlər mühüm əhəmiyyət daşıyır. Jurnalistlərin ixtisaslaşması məsələsinin aktuallığını qeyd edən Ə.Amaşov KİV təmsilçilərinin hüquqi biliklərinin artırılmasının vacibliyindən danışıb.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, Mətbuat Şurasının idarə heyətinin üzvləri - Azər Həsrət, "Teleqraf holdinq"in rəhbəri Aynur Camalqızı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Milli Məclisin deputatı Çingiz Qənizadə, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Bizim yol" qəzetinin baş redaktoru Bahəddin Həziyev, Mətbuat Şurası sədrinin müavini Müşfiq Ələsgərli, "Real" TV-nin rəhbəri Mirşahin Ağayev, "Yeni Müsavat" qəzetinin baş redaktorunun müavini Azər Ayxan, "Olaylar" qəzetinin və eyni adlı informasiya agentliyinin rəhbəri Yunus Oğuz, Mətbuat Şurasının icraçı katibi Şəmsəddin Əliyev və başqaları çıxışlarında jurnalistlərin hüquqi biliklərinin, o cümlədən məhkəmələrin fəaliyyəti barədə biliklərinin artırılmasının zəruriliyini vurğulayıblar. Çıxış edənlər bu prosesdə Ali Məhkəmənin də təşəbbüskar kimi çıxış etməsinin önəmini xüsusilə diqqətə çatdırıblar. Görüşdə, həmçinin məhkəmə-media münasibətlərinin müasir reallıqlara söykənməsi, cəmiyyətdə məhkəmə hakimiyyətinə, mediaya etimad və inamın dərinləşməsinin vacibliyi və digər məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

# Bəhruz Quliyev: "Bəzi məhkəmələr jurnalistlərə qapalıdır"



"Azərbaycan Respublikasının Ali Məhkəməsində media təmsilçiləri ilə bu formatda görüşün keçirilməsi dövlətimiz və cəmiyyətimiz üçün çox vacibdir". SİA-nın verdiyi məlumata görə, bunu bu gün Ali Məhkəmədə media nümayəndələri ilə keçirilən görüşdə çıxışı zamanı SƏS Media Qrupun rəhbəri Bəhruz Quliyev deyib.

B.Quliyev bildirib ki, məhkəmə hakimlərinin və jurnalistin peşəkarlığı əsas amil kimi götürülməlidir: "Bəzən görürsən ki, hansısa məhkəmə prosesini jurnalistlərin işıqlandırılmasına icazə verilmir və ya maneçilik törədilir. Ümumiyyətlə, mətbuatla əməkdaşlıqdan çəkinmək lazım deyil. Siz Ali Məhkəmənin sədri kimi mətbuata açıqsınız. Amma digər məhkəmə hakimləri mediaya qapalıdılar. Hesab edirəm ki, bu məsələlərə baxılmalıdır və lazımi tədbirlər görülməlidir. Jurnalistlər isə öz üzərinə düşən vəzifəni yerinə yetirməlidir və sui-istifadə hallarına yol verməməlidirlər. Mən "IV hakimiyyət" olan media ilə Ali Məhkəmənin bundan sonra da qarşılıqlı şəkildə əməkdaşlıq edəcəyinə inanıram".

# Seymur Orucov: "Gənclər Forumu görülmüş işlərin hesabatıdır"



"Azərbaycan Gənclərinin VIII Forumu münasibəti ilə ölkə gəncliyini səmimi qəlbdən təbrik edirəm. Bu Forum 2014-cü ildən gənclər siyasəti ilə bağlı görülmüş işlərin hesabatıdır". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov deyib. O, Forumun öncə regionlarda keçirildiyini, iclaslarda bölgə gənclərinin fikirlərinin dinlənildiyini vurğulayıb: "Yekun Forum hazırda Bakıda keçirilir və ölkə başçısına məruzə edilir. Bu Forum gənclər və idman siyasətinin həyata keçirilməsi üçün bir sənədlər toplusuna çevriləcək". S.Orucov bu gün Azərbaycan gəncliyinin inkişafı üçün lazımi şəraitin yaradıldığını qeyd edib: "Bu gün gənclərimiz istənilən sahədə özlərini göstərə bilirlər. Elə bir sahə yoxdur ki, orada gənclərə diqqət və qayğı olmasın. Gənclərimiz gələcəklərini yaxşı qurmaları üçün daha savadlı və bilikli olmalıdırlar. Azərbaycan gəncliyi bu uğurlu siyasəti həyata keçirən, bizi düşünən dövlət başçımız və Birinci vitse-prezidentimizə məqsədyönlü siyasətin həyata keçirilməsində dəstək olur".

## İsrail Azərbaycana yeni səfir təyin edib



İsrail Xarici İşlər Nazirliyi Azərbaycana yeni səfir təyin olunduğunu elan edib. İsrail KİV-i xəbər verir ki, bu vəzifəyə Corc Dik təyin edilib. O, 2015-ci ilin avqustundan etibarən İsrailin Azərbaycandakı diplomatik missiyasına rəhbərlik edən Dan Stavı əvəzləyəcək. C.Dik daha əvvəl İsrail Xarici İşlər Nazirliyinin Baş direktoru Yuval Rotemin böyük məsləhətçisi kimi çalışıb. İsrail KİV-nin yazdığına görə, ölkə tarixində ilk dəfə səfir postuna xristian ərəb təyin olunub. Qeyd edək ki, C.Dik nazirlikdə 2008-ci ildən işə başlayıb, ardından 2009-2012-ci illərdə İsrailin Nigeriyadakı, 2012-2015-ci illərdə isə Norveçdəki missiyasının rəhbərlərinin müavini olub.

## Azərbaycan postsovet məkanında istehlak qiymətlərinin ən az artdığı ölkələrdəndir

Azərbaycan bu ilin yanvar-oktyabr aylarında keçmiş SSRİ ölkələri arasında istehlak qiymətlərinin ən az artdığı ölkələr sırasında olub. AZƏRTAC "BelaPAN"a istinadla xəbər verir ki, hesabat dövründə ən çox inflyasiya Özbəkistanda qeydə alınıb (9,5 faiz). Moldovada qiymətlər dəyişməz qalıb. Azərbaycanda istehlak qiymətləri 0,2 faiz artıb.

# Fransa ikibaşlı oyunundan əl çəkmir

## Qondarma Dağlıq Qarabağın separatçı rejimi ilə müəmmalı təmasları...

***Son vaxtlar etnik ermənilərin çoxluq təşkil etdikləri Fransanın Alforvil, Valans, Sent-Etyen və Arnuvil şəhərlərinin bələdiyyə başçıları işğal altında olan Dağlıq Qarabağın separatçı rejimi ilə müəmmalı və intensiv təmaslar qururlar. Elə bu günlərdə qondarma "Dağlıq Qarabağ Respublikası"nın prezidenti Bako Saakyanın Fransaya səfəri və orada bəzi şəhər merləri ilə görüşləri bir daha Fransanın ikibaşlı oyununun reallığıdır.***

Fransanın yerli özünüidarəetmə orqanının beynəlxalq hüququn norma və prinsiplərini və Azərbaycan qanunlarını kobud şəkildə pozaraq, eləcə də Fransa milli qanunlarına zidd olaraq atdığı bu addım işğalçı Ermənistanın Azərbaycan ərazilərində yaratdığı qondarma separatçı rejimin təşviqinə xidmət edir. Fransa Cənubi Osetiya, Abxaziya, Krım və Dnestryanı bölgələrdən olan şəxslərə Fransa ərazisinə daxil olmağa icazə vermədiyi halda, Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin nümayəndələrinə xüsusi rəğbət göstərir. Beləliklə də, Fransa beynəlxalq hüquqları kobud şəkildə pozduğunu çox yaxşı bildiyi halda, bu kimi separatizm xarakterli addımlar atır. Bu mənada Fransa müxtəlif təəssübkeşlik hissləri ilə ikibaşlı oyun oynayır.



### Elman Nəsirov: "Fransa nümayəndələrinin Azərbaycanın işğal altındakı ərazilərinə qanunsuz səfərləri ikibaşlı oyundur"

Sözügedən məsələ ilə bağlı münasibət bildirən Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələr komissiyasının katibi, siyasi elmlər doktoru, professor Elman Nəsirov Fransa nümayəndələrinin Azərbaycanın işğal altındakı ərazilərinə qanunsuz səfərlər etmələrinin ikibaşlı oyun olduğunu bildirib: "Birincisi, Fransanın yüksək rütbəli təmsilçilərinin separatçı rejim ilə belə təmasları, ilk növbədə, beynəlxalq hüququn norma və prinsiplərinə, Azərbaycan qanunvericiliyinin mühüm tələblərinə, o cümlədən Fransanın milli qanunları və üzərinə götürdüyü beynəlxalq öhdəliklərə hörmətsizlik və onların kobudcasına pozulması aktıdır.

İkincisi, bu addımlar ümumən radikalizm, ekstremizm və terrorizmlə yanaşı, eyni zəncirin mühüm həlqəsi olan separatizmin, konkret halda isə Azərbaycanın işğal altındakı ərazisi olan Dağlıq Qarabağda bu təhlükə mənbəyinin təbliği və təşviqi anlamındadır. Belə siyasət, ilk növbədə, ərazisində Korsika, Bretan, Yeni Kaledon, Polineziya, Mayotta və s. kimi potensial separatizm ocaqlarının "tüstüləndiyi" Fransanın uzaq olmayan perspektivdə eyni mənbədən qidalanmaqla milli maraqlarının hədsiz təhlükə altına alınmasına rəvac verə bilər. Üçüncüsü, qeyd edilən qeyri qanuni hərəkətlər, o cümlədən Fransadan olan merlərin qondarma Dağlıq Qarabağ separatçıları ilə Qarabağın tarixi mərkəzləri olan Şuşada və Laçında imzaladıqları "dostluq xartiya"ları, nəticə etibarilə, Azərbaycan-Fransa dostluq və tərəfdaşlıq münasibətlərinin həm keçmişinə, həm bu gününə, həm də gələcəyinə ciddi kölgə salan hadisələrdir".

E.Nəsirli onu da vurğulayıb ki, təsadüfi deyil ki, Prezident İlham Əliyev ilk rəsmi səfərlərinə 2004-cü ilin yanvar ayında məhz Fransadan başlayıb: "Ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Fransanın mədəni irsinin qorunması üçün Strasburqda, Versalda, Normandiya bölgəsində müxtəlif layihələr icra edilib. Bakıda möhtəşəm "Plaisirs de France" sərgisi keçirilib. Bakı Fransız Liseyi, Azərbaycan-Fransız Universiteti açılıb. Bu və digər faktlar Azərbaycanın Fransa ilə məhz qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsində maraqlı olduğunu təsdiqləyir. Təəssüf doğuran isə odur ki, Fransanın bəzi siyasi və lobbi dairələri bu dövlətin böyük dövlətçilik maraqlarını bir kənara atıb, cılız və dar erməni mənafeyinin keşiyində dayanmağa üstünlük veriblər. Bununla da beynəlxalq hüququn deyil, separatizmin, etnik təmizləmə siyasətinin, terrorçuluğun və insanlıq əleyhinə cinayət olan soyqırımının yanında yer alıblar."

### Həmsədrlər Ermənistanın lobbiçilik missiyasında

Bu yerdə bir məqamı da vurğulamaq yerinə düşər ki, bu qanunsuz səfərlərin olmasında günahkar olan ATƏT-in Minsk Qrupunun 26 illik fəaliyyətsizliyini xüsusi olaraq vurğulamaq lazımdır. Həmsədrlərin regiona hesabat xarakterli və mücərrəd xarakterli səfərlərinin nəticələri sıfıra bərabərdir. O cümlədən, ATƏT-in Minsk Qrupunun Fransalı həmsədrlərinin ikibaşlı oyunları da göz qabağındadır. Ümumiyyətlə, yarandığı vaxtdan etibarən ATƏT-in Minsk Qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilsə də, indiyə qədər bu qurumun fəaliyyəti sülh prosesində arzu olunan nəticəni verməyib. Buna səbəb, bir tərəfdən Ermənistanın qeyri-konstruktiv mövqedən çıxış edərək işğalçılıq siyasətini davam etdirməsi, digər tərəfdən, beynəlxalq təşkilatların, qarşılıqlı güzəşt prinsipini üstün tutmasıdır. Bununla yanaşı, ATƏT çərçivəsində yaradılan Minsk Qrupu və bu qrupa həmsədrlik edən ABŞ, Fransa və Rusiya kimi böyük dövlətlər münaqişənin ədalətli həlli üçün təcavüzkara qarşı heç bir təzyiq göstərməyiblər və Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, eləcə də Təhlükəsizlik Şurası sədrinin qəbul etdiyi 7 bəyanatda Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi olduğu kimi qalmaqdadır.

ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi Fransanın öhdəliklərinə zidd olmasına baxmayaraq, bu səfərin qarşısının alınması üçün heç bir tədbir görülmür. Fransa hökumətinin dəfələrlə təkrarlanan bu kimi qeyri-qanuni əməllərə passiv seyrçi münasibəti və təsirli addımlar atmaması qəbuledilməz haldır. Bütün bunlara baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə və birmənalı olaraq "Azərbaycan ərazi bütövlüyü danışıqların mövzusu ola bilməz" fikrini vurğulayaraq bildirir ki, qondarma Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcək, dünya birliyi heç vaxt Dağlıq Qarabağın müstəqilliyini tanımayacaq.

**R.HÜSEYNOVA**

# Elçin Mirzəbəyli: "Fransanın davranışları BMT Nizamnaməsinin VI və VII fəsillərində yer alan prinsiplərə tamamilə ziddir"



BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Fransanın Azərbaycanın işğal altında olan ərazilərində formalaşdırılmış qanunsuz rejimlə və onun təmsilçiləri ilə bağlı sərgilədiyi davranışlar BMT Nizamnaməsinin VI və VII fəsillərində yer alan prinsiplərlə ziddiyyət təşkil edir.

Bunu AZƏRTAC-a açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli deyib. Ekspert qeyd edib ki, Fransanın qondarma rejimin təmsilçisinin ölkə ərazisinə səfər etməsinə imkan yaratması bu ölkənin ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi mandatına ziddir. Minsk qrupunun həmsədr ölkələri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasını yerinə yetirirlər və onların beynəlxalq hüququn prinsiplərindən çıxış etmələri, tərəfsizliklərini qoruyub saxlamaları əsas şərt hesab olunur. Fransa öz vətəndaşlarının işğal altında olan Azərbaycan ərazilərinə səfər etmələrinə göz yummaqla və bəlkə də dolayısı ilə buna şərait yaratmaqla Azərbaycanın beynəlxalq hüquq tərəfindən tanınmış ərazilərində formalaşdırılmış qanunsuz, cinayətkar rejimin təmsilçilərinin öz ərazisinə səfər etməsinə şərait yaratmaqla tərəf olduğunu sübuta yetirir. Bu da adıçəkilən dövlətin ATƏT-in Minsk qrupunun həmsədri kimi fəaliyyətini şübhə altına alır. Bu səbəbdən Fransanın ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi fəaliyyətini bundan sonra da davam etdirməyə hüquqi və mənəvi haqqı yoxdur.

Ekspert əlavə edib ki, Fransa Xarici İşlər Nazirliyinin və bu ölkənin Azərbaycandakı səfirinin sadəcə olaraq "Fransa "Dağlıq Qarabağ Respublikası"nı tanımır deməklə kifayətlənməsi tamamilə qəbuledilməzdir və məsuliyyətdən qaçmaqdan başqa bir şey deyil. Fransa açıq və birmənalı şəkildə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü, suverenliyini və münaqişənin də bu prinsiplər əsasında həllini dəstəkləməlidir.

# Bəsti İsmayılova-70





# Ləyaqətli ömrün işıq saçan illəri

İnsan əməyi həyat gerçəkliklərindən yoğrulmuş portret cizgilərinin tablosunu yaradır. Zamanın bərpa olunmayan məqamları bu cizgilərin əsas xəttini təşkil edir. Geriyə boylananda həyat fəlsəfəsinin zəngin boyalardan çəkilmiş bir tablosunun şahidinə çevrilirsən. Müəllifi olduğun həyat tablosunun. İdrakın, təfəkkürün məhsulu olan bu tabloda zəhmət məfhumu da mühüm rol oynayır. Bu gün ömrünün onilliklərini arxada qoyan Bəsti İsmayılovanın da yaratdığı tablodan - həyat tablosundan oxuya biləcəyimiz maraqlı, yaddaqalan, həyat eşqi ilə dolu çox məqamlar var. Uzun illərdir ki, onu tanıdığımdan hər zaman ictimai həyatda daim fəallığı, bacarığı işgüzarlığı, səmimiyyəti, təvazökarlığı ilə seçilən bir qadın kimi özünəməxsus keyfiyyətləri diqqətimi cəlb edib.

Bu gün 70 illik yubileyini qeyd edən Bəsti xanım neçə onilliklərdir ki, öz həyatını sevib-seçdiyi sənətə həsr edib. Yaratdığı özünəməxsus tərcümeyi-halı Bəsti xanımın əməli fəaliyyətini açıq-aydın göstərir.

1948-ci ildə 17 noyabr tarixində qədim Şərqin qapısı olan Naxçıvan şəhərində qulluqçu ailəsində dünyaya göz açan Bəsti İsmayılova orta təhsilini C.Məmmədquluzadə adına 2 nömrəli ümumtəhsil məktəbində (1954-1965) almışdır. Orta məktəbi əla qiymətlərlə başa vuran gənc qız elə həmin il Bakıya gəlmiş və o vaxtkı Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun texnologiya fakültəsinin əyani şöbəsinə daxil olmuşdur. Lakin çox keçmir ki, ailə vəziyyətini nəzərə alaraq, axşam şöbəsində təhsilini davam etdirmişdir. Taleyin qisməti onu tələbə ikən "Azərbaycan" nəşriyyatına gətirir. Təhsilini axşam şöbəsində davam etdirən Bəsti xanım nəşriyyatda əməkhaqqı şöbəsində hesablayıcı vəzifəsində iş fəaliyyətinə başlayır. Bu çalışqan qız tez bir zamanda rəhbərliyin diqqətini çəkir və o, kadrlar şöbəsində kadr hazırlığı üzrə mühəndis vəzifəsinə keçirilir, sonralar mühəndis-texnoloq, böyük dispetçer, baş texnoloq, istehsalat şöbəsinin rəisi və ən nəhayət, 1994-cü ildən "Azərbaycan" nəşriyyatının baş direktorunun istehsalat məsələləri üzrə müavini vəzifəsinə təyin olunmuş və 2015-ci ilədək bu vəzifədə çalışmışdır. Hazırda nəşriyyatın ən aparıcı şöbəsi olan istehsalat şöbəsinin rəisidir.

Xoşbəxt o insandır ki, gündüzlər işə, axşam isə evə tələsir. Hər kəsə nəsib olmayan bu xoşbəxtliyi tanrı onun həyat payına qismət edib. Ailəsini də sevir, işini də. Nə qədər qayğısı olsa da, bu bərabərliyi iş və ailə sevgisi qoruyub-saxlaya bilir. Daim tələsərək, zamanın sürətli axarında onunla ayaqlaşır. Zahirən sakit, zərif görünən xanım işinin çətinliyinə sinə gərir.



Ötən əsrin 90-cı illərində ictimai-siyasi hadisələrin hökm sürdüyü sərt bir zaman təbii ki, dövri mətbuatın çap olunduğu məkana da təsirsiz ötməyib. Həmin illərdə burada məsul bir vəzifədə çalışan Bəsti xanım üçün bu, çox mürəkkəb və ağır bir zaman idi. Nə qədər çətin, məsuliyyətli, ən əsası da qorxulu olmasına baxmayaraq, Bəsti xanım işinin öhdəsindən boyun qaçırmayaraq vətənpərvər Azərbaycan qadını kimi iradəsini ortaya qoydu. 1990-cı ildə 20 Yanvar hadisəsi baş verəndən sonra paytaxtımızda fövqəladə vəziyyət elan olunduğundan, qəzetlərin nəşrinə xüsusi nəzarət edilirdi. Belə bir zamanda özünün vurğuladığı kimi gizli bir şəkildə qəzetlər dərc olunurdu və qəzetin çapdan çıxması üçün gecələr belə nəşriyyatda qalmalı olurdular. Bəsti xanımın ömür yolu elə də hamar yollardan keçməyib. Həyatın ağlı-qaralı, zolaqlı yolları Bəsti xanımı zamanın mübariz ruhlu qadınına çevirib. Etiraf edək ki, bu ruh onun mənəvi dünyasına hakim olan dəyəridir. Ruhən dinclik tapmayan bu insan çətin sınaqlı bir dövrdə əqlin, qəlbin diqtəsinə qulaq asmış, təhlükəli olsa da, zamanın çağırışına cavab vermişdir. Bu, onun daxili dünyasının səsi idi. Tərbiyə aldığı ocağının çağırışı idi. Fədakar qadının atdığı addımlar hər birimiz üçün qürurvericidir. O illər arxada qalsa da, ömür yolunda vərəqlənən səhifələrdir. Öz zəhməti, əməyi ilə alnıaçıq şəkildə yazıb o bu səhifələri. Bəsti xanım həmin illəri yaxşı xatırlayır. Çözələdiyi ömür yolunun şərəfli səhifələri bu gün xatirələşsə də, bir insan həyatının tarixidir.

Bu gün illərdir ki, onun əmək fəaliyyətinə başladığı "Azərbaycan" nəşriyyatı yeni dövrünü yaşayır. Dövlət tərəfindən ayrılan diqqət və qayğı nəticəsində nəşriyyatın maddi-texniki bazası gücləndirilmiş, müasir texniki avadanlıqlarla təchiz olunmuşdur. Müstəqilliyimizin ilk illərində kitab və mətbu orqanların çapı nə qədər çətin idisə, bu gün daha rahat və asandır.

Sənətini sevən Bəsti xanım bu gün qaynar iş rejiminə baxmayaraq, böyük peşəkarlıqla üzərinə düşən işin öhdəsindən layiqincə gəlir. Belə ki, nəşriyyatda çap olunan istənilən bir kitab, jurnal və qəzetin texniki problemlərini çox ustalıqla həll edir. Bu, həm də onun uzun illər peşəkarlıq təcrübəsindən irəli gəlir. İllər ötsə də, Bəsti xanım tükənməz həvəs enerji ilə yorulmadan işləyir, poliqrafiya sahəsində qazandığı biliyi gənc nəslə böyük həvəslə öyrətməyə çalışır.

Fəal ictimaiyyətçi olan Bəsti xanım Yeni Azərbaycan Partiyasının üzvüdür. Onun uzun illik əmək fəaliyyəti hər zaman diqqətdə olmuş, dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Milli mətbuatımızın 130 illiyi münasibəti ilə bir qrup mətbuat işçiləri ilə birlikdə Bəsti xanım da Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Əməkdar mədəniyyət işçisi" (2005) adına layiq görülmüşdür. Bundan başqa o, "Kamil sənətkar" diplomu (1995), "Xan qızı Natəvan" (1998), Azərbaycan Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin Fəxri Fərmanı (2005), "Əmək veteranı" vəsiqəsi (2006) və s. ilə təltif olunmuşdur.

Ötən illər ərzində mənalı həyatı, şərəfli ictimai fəaliyyəti onun ləyaqətli ömür salnaməsini yazmışdır. Bəsti xanım bir ana kimi də nümunəvi Azərbaycan qadınıdır. Gözəl, sağlam ailəsi - iki oğul övladı, altı nəvəsi və bir nəticəsi var. Zənnimcə, bu, bir qadın xoşbəxtliyini tamamlamağa yetər. Milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi hər şeydən üstün tutan, qoruyan Bəsti xanım şəcərəsindən əxz olunan dəyərləri bu gün ocağında böyüyən doğmalarına aşılayır.

Bəsti xanım, Sizi 70 illik yubileyiniz münasibəti ilə təbrik edir, Sizə can sağlığı diləyir, bu uğurların davamlı olmasını arzulayırıq.

**ZÜMRÜD BAYRAMOVA**

# 2019-cu ilin dövlət büdcəsinin ən üstün cəhətlərindən biri sosialyönümlü olmasıdır



*Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəblinin yap.org.az-a müsahibəsi*

**- Hadi müəllim, bildiyimiz kimi Milli Məclisdə üç gün ardıcıl olaraq 2019-cu ilin büdcə zərfinə daxil olan sənədlər geniş müzakirə olundu. İlk olaraq, gələn ilin dövlət büdcəsinin üstün cəhətləri haqqında fikirlərinizi bilmək istərdik...**

- Əvvəlcə qeyd edim ki, dünyada gedən mürəkkəb proseslərə rəğmən ölkəmizdə Ulu öndər Heydər Əliyevin yaratdığı sosial sabitlik bazasında sosial rifah hökm sürür. Ötən illər ərzində Azərbaycanda sosial məqsədlərə ayrılan vəsaitlərin həcmi daim intensiv olaraq artıb.

Parlamentdə müzakirələr zamanı bildirildiyi kimi 2019-cu ilin dövlət büdcəsinin layihəsi "Büdcə sistemi haqqında" Qanundan, Azərbaycan Respublikasının milli iqtisadiyyatının başlıca sektorları üzrə Strateji Yol Xəritəsindən irəli gələn tələblər, habelə dünya və Azərbaycan iqtisadiyyatında gözlənilən meyillərin təhlili əsasında formalaşıb. Büdcənin sabitliyi və ortamüddətli dayanıqlılığının təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Bu amillərlə yanaşı, proqnozlaşdırma zamanı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin hazırladığı 2019-2022-ci illər üzrə ölkənin makroiqtisadi proqnoz göstəriciləri və gözlənilən iqtisadi meyillər, o cümlədən 2019-cu ildə ümumi daxili məhsulun 3,6 faizlik, qeyri-neft sektorunda isə 3,9 faizlik real artım sürəti nəzərə alınıb, dövlət büdcəsi və Dövlət Neft Fondunun gəlirlərinin hesablanmasında bir barel xam neftin satış qiyməti 60 ABŞ dolları səviyyəsində qəbul edilib. Bütövlükdə, dünya iqtisadiyyatında cərəyan edən proseslərin Azərbaycan iqtisadiyyatına mənfi təsirinin qarşısının alınması 2019-cu ildə həyata keçiriləcək monetar və fiskal siyasətin əsas prioritetlərindən biri kimi gündəlikdə durmaqdadır.

2019-cu il üçün dövlət büdcəsinin gəlirləri ümumi daxili məhsulun 28 faizi həcmində olmaqla, mütləq ifadədə 22 milyard 918 milyon manat təşkil edəcək. Bu da cari illə müqayisədə 769 milyon manat və ya 3,5 faiz çoxdur. Gəlirlərin 9 milyard 217 milyon manatı və ya 40,2 faizi qeyri-neft sektoru üzrə daxilolmaların, 13 milyard 700 milyon manatı və ya 59,8 faizi neft gəlirlərinin payına düşəcək. 2019-cu ildə Vergilər Nazirliyin xətti ilə proqnozlaşdırılan daxilolmalar 7 milyard 316 milyon manat, Dövlət Gömrük Komitəsi xətti ilə proqnozlaşdırılan daxilolmalar isə 3 milyard 452 milyon manat səviyyəsində qiymətləndirilir. Dövlət Neft Fondundan transfert isə 11 milyard 364 milyon manat müəyyən edilib. Büdcə təşkilatlarının ödənişli xidmətləri hesabına 627 milyon manat, digər daxilolmalar üzrə 159 milyon manat vəsaitin daxil olacağı nəzərdə tutulur.

**- 2019-cu ilin dövlət büdcəsi həmçinin sosialyönümlü büdcə kimi səciyyələndirilir. Bu barədə nə deyə bilərsiniz?**

- Ümumiyyətlə, son 15 il ərzində möhtərəm Prezidentimiz İlham Əliyev sosial siyasət və sosial müdafiə sistemində dünyaya nümunə olacaq ardıcıl və sistemli yeniliklər həyata keçirib. Proqramlarla idarəetmə, regional inkişaf, qabaqlayıcı tədbirlər, ünvanlılıq və şəffaflıq ideyaları bu fəaliyyətin təməl prinsiplərindən olub.

2008-ci ildən başlayaraq dünyada gedən bütün iqtisadi və sosial kataklizmlərə baxmayaraq ötən müddətdə ölkəmizin dövlət büdcəsi həmişə sosial yönümlü və investisiya tutumlu olub. Buna əyani sübut məhz gələn ilin büdcə xərclərinin 33.4%-inin sırf sosial məqsədlərə yönəlməsidir.

Gələn ilin dövlət büdcəsində sosial sahəyə ayrılan vəsaitlərin həcmi bütövlükdə artıb, əhalinin rifah halının yaxşılaşmasına xidmət edən maraqlı məsələlər ortaya qoyulub. Sosial müdafiə sistemində yeni institut formalaşıb. Azərbaycanda bu sahədə ardıcıl islahatlar aparılır və bu islahatlardan biri də Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST) yaradılmasıdır.

Gələn il dövlət büdcəsindən sosial məqsədlərə 8 milyard 265,8 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Bu da büdcənin 33,4 faizini təşkil edir. Növbəti ildə sosial tədbirlərə aid olan elm, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət, gənclər siyasəti ilə bağlı xərclərə 6 milyard 369 milyon manat vəsait sərf ediləcək. Bu da cari illə müqayisədə 787 milyon manat, yəni 14,1 faiz çoxdur. Sosial tədbirlərin xərclərinin dövlət büdcəsi xərcləri tərkibində xüsusi çəkisi cari illə müqayisədə 1,5 faiz bənd artaraq 25,7 faizə, ümumi daxili məhsula nisbətdə isə 0,5 faiz bənd artaraq 7,8 faizə çatacaq. Prezident İlham Əliyevin sərəncamları ilə dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışanların əməkhaqqılarının artırılması, sosial müavinətlər, təqaüdlər və digər sosial yönümə aid edilən xərclər üzrə yaranmış əlavə maliyyə öhdəliklərinin təmin edilməsi üçün dövlət büdcəsindən 620 milyon manat, pensiya təminatı sahəsində əlavə sosial müdafiə tədbirləri üçün 110 milyon manat, 1425 məktəbəqədər təhsil müəssisəsində bir günlük ərzaq xərclərinin orta hesabla üç dəfə artırılması məqsədilə 83 milyon manat məbləğində vəsait ayrılıb.

Növbəti ildə elm xərcləri üçün 134 milyon manat vəsait nəzərdə tutulub ki, bu da cari illə müqayisədə 5 milyon manat və ya 4,2 faiz çoxdur. 2019-cu ilin təhsil xərclərinə 2 milyard 275 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu da cari ilə nisbətən 231 milyon manat və ya 11,3 faiz çoxdur. Təhsil xərclərinin dövlət büdcəsinin xərcləri tərkibində xüsusi çəkisi 9,2 faiz təşkil edir. Növbəti ilin dövlət büdcəsində səhiyyə xərcləri üçün 1 milyard 48 milyon manat vəsait nəzərdə tutulub. Bu da cari illə müqayisədə 309 milyon manat və ya 41,8 faiz çoxdur. İcbari tibbi sığortanın tətbiqi ilə bağlı maliyyə təminatının yaradılması üçün 240 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub.

**- Bəs "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi"ndə nə kimi pozitiv məqamlar var?**

- Sosial təminat və müdafiəni həyata keçirən orqanın 2019-cu il üçün büdcəsi əvvəlki illərdəkindən xeyli, təqribən 500 milyon manat artaraq 3.928.000000 (üç milyard doqquz yüz iyirmi səkkiz milyon) manat gözlənilir. Bu büdcənin 61.5% bilavasitə dövlət sosial sığorta yığımlarının toplanması hesabına nəzərdə tutulmuşdur. Sevindirici hal odur ki, bu rəqəmin 62% və ya 1.5 milyard manatı qeyri büdcə sektoru hesabına toplanacaq. Bütövlükdə planlaşdırılan bu büdcənin 1 milyard 503 milyon manatı isə müvafiq icra hakimiyyəti orqanlarının büdcə balanslaşdırılması məqsədi ilə dövlət öhdəlikləri hesabına formalaşacaq ki, bu da ümumi həcmdə faiz olaraq 38,3% təşkil edəcək.

2018-ci ilin on ayı ərzində müvafiq sosial müdafiə strukturunun büdcəsinin icrası ilə bağlı bir sıra müsbət məqamları da nəzərinizə çatdırmaq istəyirəm. Belə ki, bu ilin büdcəsinin icrası ötən on ayın yekununa görə əvvəlki illərlə müqayisədə daha dəqiq icra olunmaqla yanaşı burada özəl qurumlardan toplanan vəsaitlərin həcmində də hiss olunacaq dərəcədə artım vardır. Qəbul etdiyimiz sosial yönümlü mütərəqqi qanunların tətbiqi ilə bağlı aparılan islahatlar nəticəsində vətəndaşlara ödənilən sosial müdafiə məqsədlərinə xeyli əlavə vəsaitlər xərclənib. Bunlardan bir stratın - pensiyaçıların sayının dəmək olar ki, sabit qalmasına baxmayaraq bu sahədə ödənişlərin məbləği 200 milyon manatdan daha çox artıb. Bu da qəbul etdiyimiz pensiya qanununa dəyişikliklər nəticəsində çalışan pensiyaçıların pensiya ödənişlərinin məbləğinin yenidən hesablanması səbəbindən olmuşdur.

Bütün bunlarla yanaşı, pensiyaçıların tərkibi ödəmələrdə olan bəzi qeyri-səmərəli göstəricilər də bizi daim düşündürür. Belə ki, əvvəllər vaxtaşırı tənqid etdiyimiz pensiyaçıların tərkibində əlillərin faizinin çox olması pensiya islahatları ilə bağlı yeni qanunun tətbiq olunması hesabına 5%-dən çox azalıb. Bütün bunlara baxmayaraq gələn il üçün nəzərdə tutulan büdcədə pensiyaçıların 30%-nə qədərinin yenə də əlilliyə görə həmin ödəmələrə malik olacağı gözlənilir. Onu da vurğulamaq yerinə düşərdi ki, qanundakı yeni dəyişikliklərə görə II və III qrup əlillər güzəştli pensiyaya çıxmaq hüququndan məhrum olurlar. Təəssüflə qeyd etmək istərdim ki, əlilliyin qeydə alınmasıyla bağlı başqa bir paradoks özünü göstərməyə başlayıb. Bu da son aylar vaxtından əvvəl güzəştli pensiya sənədləşdirmək istəyən I qrup əlillərin sayının xeyli çoxalmasına gətirib çıxarıb.

**- Qeyd etdiyiniz bu məsələlərin həll edilməsi üçün hansı tədbirlər görülür?**

- Məndə olan məlumata görə, Əmək və Əhalinin Sosial Müdafiə və Səhiyyə nazirlikləri bu sahədə olan nöqsanları aradan qaldırmaq üçün əsaslı tədbirlər hazırlayırlar. Sevindirici hal ondan ibarətdir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində aparılan islahatlar nəticəsində müsbət dəyişikliklər baş verməklə yanaşı burada innovativ və elektron hökumət elementlərinə daha çox diqqət yetirilir ki, bu da nəticədə hər cür neqativ halların kökündən kəsilməsinə xidmət edir.

Büdcənin məxaric hissəsindəki digər uyğunsuzluqlara diqqətinizi cəlb etməkdən öncə gələn il üçün yarana biləcək ehtiyat mənbələrini də yada salmaq istərdim. Hesablama Palatasının rəyinə istinad edərək, sığorta borclarının yığılaraq kəskin surətdə azalmasına baxmayaraq bu göstəricilərhələ də qalmaqdadır. Gələn il üçüngözlədiyimiz ən maraqlı və fundamental inqilabi dəyişikliklərdən biri ölkə də mütərəqqi verfi islahatlarının aparılması olacaqdır. Nəticədə özəl bölmədə 7 il müddətinə sahibkarlıq subyektlərində çalışan şəxslər 14% gəlir vergisindən tamamilə, işə götürənlər və işçilər isə həm də sığorta ödəmələrindən qismən azad olacaqlar. Bu hesaba da bütövlükdə 26% miqdarında olan sosial və işsizlikdən sığorta haqları ödənişləri azaldılaraq, yığım mexanizmləri dəyişdirilərək bir qurum yeni vergi orqanları tərəfindən tutulacaq. Beləliklə, nəzərdə tutulan qanun layihəsinə əsasən artıq işçi bir mənbəyə, yəni vergi qurumlarına 10%, işə götürən isə 16% sığorta haqqı ödəyəcək. Bu yolla vergi yükü hiss olunacaq dərəcədə azalacaq, belə olan təqdirdə isə həm işçi, həm də işəgötürən müəyyən əlavə qazanc əldə etmiş olacaq. Bu sistemin tətbiqi bir milyondan çox qeyri leqal məşğulluğun rəsmiləşməsinə kömək edəcək və nəticədə sığorta haqlarının ödənişləri hiss olunacaq dərəcədə sürətlə artacaq.

Bununla bağlı digər məqamlara da diqqət çəkmək istərdim. Sosial təminat və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyətinin 2019-ci il büdcəsinin müzakirəsi ilə bağlı keçirilən komitə iclaslarında deputat həmkarlarım bir neçə göstəricilərə xüsusi diqqət yetirdilər. Bu da büdcədən həmkarlar konfederasiyasına sanator-kurort xidmətləri və istirahət məqsədilə yollayışların alınması üçün nəzərdə tutulan vəsaitlərdir. Tamamilə dəyişməyən bu məsrəf göstəricisi büdcənin ümumi həcmində hətta 2006-ci ildəki rəqəmdən belə faiz olaraq 2.5 dəfə azdır.

Digər dəyişməyən, məqsədli məsrəfinin artımı gözlənilməyən göstəricilərə də diqqətinizi cəlb etmək istərdim. Uşaqların asudə vaxtının təşkili ilə bağlı möhtərəm prezidentimiz İlham Əliyev cənablarının təşəbbüsü ilə "Ölkəmizi tanıyaq" devizi ilə ildə iki dəfə icra hakimiyyətləri tərəfindən əlaqələndirilən və keçirilən maarifləndirici tur aksiyaları özəl və qeyri özəl təşkilatlar üçün bir nümunə və örnəkdir. Minlərlə məktəblinin ilin payız və yaz fəsillərində ayrı-ayrı regionlara, məktəbli turist səfərlərinə göndərilməsi uşaqların dünyagörüşünün, kommunikallığının, sərbəstliyinin, şəxsiyyətinin digər mənəvi və işgüzar keyfiyyətlərinin formalaşmasında böyük rol oynayır. Buna baxmayaraq müzakirə etdiyimiz büdcədə uşaqların istirahəti üçün ayrılan vəsait cüzi olmaqla yanaşı ötən ilin göstəricisini gələn il üçün də təkrarlayır. Bütövlükdə bu məqsədlər üçün nəzərdə tutulan cəmi 20 milyon manat vəsaitin ən aşağısı 3-5% olaraq artırılması yaxşı olardı. Bunun da mənbəyini əgər dövlət büdcəsindən alınmazsa, qeyri-büdcə sektorunda gözlənilən əlavə sığorta yığımı hesabına etmək mümkün olardı.

Uşaqlardan söz düşmüşkən, bu büdcənin 3 maddəsini də xüsusilə qeyd etmək istərdim. Maraqlı tendensiya ondan ibarətdir ki, ölkədə təbii artım ilbəil çoxalsa da, demoqrafik tənzimlənmə baxımından doğuşda son illər ciddi azalma hiss olunur. Bu bölüm üçün nəzərdə tutulan maliyyə vəsaitinin artmaması bizi xüsusən narahat edir. Bəzi rəqəmləri diqqətinizə çatdırmaq yerinə düşərdi. Əgər 2011-ci ildə bir ildə 176072 uşaq dünyaya gəlmişdisə, 2017-ci ildə bu göstərici 144041 enmişdir.Bu ilin 9 ayının göstəricisi 103 min rəqəm ilsə əlbəttə düşmüşdür. Yaxşı olardı ki, pis halda heç olmazsa bu rəqəmlər sabit qalmaqla sadaladığım qrup insanlar üçün xüsusən bir dəfəlik ödəmə, sosial durumu ağır olan ailələrə 3 yaşadək müavinət və sair məsələlər direktiv orqanlar tərəfindən yenidən baxılsın burada əlavə imtiyazlar müəyyənləşdirilsin və hətta bu ödənişlərin həcminin artırılması da müəyyənləşsin.

**- Hadi müəllim, "İşsizlikdən sığorta fondunun" büdcəsi hansı məqsədlərə yönələcək?**

- Artıq ikinci ildir ki, parlamentdə "İşsizlikdən sığorta fondunun" büdcəsi müzakirə olunur. İlk dəfə olduğundan ötən il sığortaolunanların siyahısına aid olmayan qruplar da salındığından məsələn hərbiçilər 2019-ci ilin bu rəqəmi 89 milyon manat nəzərdə tutulmuşdu. Korrektə edildikdən sonra bu ilin yığım reallığı isə 83 milyon 421 min 400 manat təşkil edir. Maraqlıdır ki, bu büdcədə qeyri-büdcə sektorundan sığorta gəlirləri təxminən 69%-ə qədər müəyyənləşib.

Ölkə Prezidenti İlham Əliyevin qarşıya qoyduğu ən önəmli tələblərdən biri olan passiv sosial müdafiədən aktiv sosial müdafiəyə keçid yanaşmasına uyğun olaraq bu büdcənin təxminən 44 milyon manatı özünüməşğulluğa və ödənişli ictimai işlərin təşkilinə yönəlib. Büdcədə işsizliyə görə sığorta ödənişlərindən başqa, peşə hazırlığına, məsləhət xidmətlərinə, əmək yarmarkalarına və bu istiqamətli standartların hazırlanmasına istiqamətli vəsaitlər də ayrılıb.

Layihədən bir daha aydın olur ki, bu büdcənin əslində baş məqsədi daha çox işsizlərin işlə təmin olunmasına, məşğulluğa xidmət edir.

# HÜSEYN CAVİDİN EV-MUZEYİ YENİ EKSPONATLARLA ZƏNGİNLƏŞDİRİLİB



Naxçıvan Muxtar Respublikasında elmin, mədəniyyətin inkişafına, mədəniyyət müəssisələrinin yaradılmasına, onların maddi-texniki bazalarının möhkəmləndirilməsinə xüsusi diqqət və qayğı göstərilir. Bu gün Muxtar Respublikamızda 30-dan artıq muzey fəaliyyət göstərir. Onlardan biri də Hüseyn Cavidin ev-muzeyidir. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1981-ci il iyulun 21-də Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidin ev muzeylərinin yaradılması haqqında Qərarından sonra Naxçıvanın qədim Əlixan məhəlləsində ədibin ev-muzeyi yaradılmış, 1984-cü il iyunun 9-da muzeyin rəsmi açılışı olmuşdur. Hüseyn Cavidin ev-muzeyi 6 otaqdan ibarətdir. Otaqların hər biri böyük dramaturqun həyatının ayrı-ayrı dövrlərini əks etdirir. Yarandığı dövrdə 300 eksponatla fəaliyyətə başlayan muzeydə hazırda 9 mindən artıq eksponat var. Bu eksponatların 500-dən çoxu ekspozisiyada nümayiş olunur. Ekspozisiyaya daxil olan əsas eksponatlar şairin yaradıcılığının məhsulu olan və müxtəlif dövrlərdə çap olunmuş əsərləri, xatirə əşyaları, təsviri sənət və heykəltəraşlıq əsərləridir. Muzeydə Hüseyn Cavidin özü ilə yanaşı, ailə üzvlərinin irsi də ayrı-ayrılıqda öyrənilir və təbliğ olunur. Burada şairin oğlu Ərtoğrol Cavidə, qızı Turan Cavidə və qardaşı Şeyx Məhəmməd Rasizadəyə məxsus sənədlər, xatirə əşyaları və fotoşəkillər də xüsusi rəflərdə saxlanılır.

Son dövrlərdə muzeyin fonduna daxil olan yeni eksponatlar fondu daha da zənginləşdirmişdir. Hüseyn Cavidin İstanbulda ilk dəfə nəşr olunmuş "Seçilmiş əsərləri", Turan Cavidə məxsus stolüstü saat, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyevanın "Xatirələr" əsəri, Ərtoğrol Cavidin musiqi əsərləri, ingilis dilində nəşr olunmuş "Cavid hikməti: Seçmə aforizmlər" kitabı, Lütviyyə Əsgərzadənin "Hüseyn Cavid. Mühiti və müasirləri" kitabı, Yusif Aslanovun "Cavidin söz dünyası kitabı", Sona Vəliyevanın "Hüseyn Cavid. Vətənə qayıdış" kitabı və "Hüseyn Cavid. Vətənə qayıdış" fotoalbomu, şairin İranda nəşr olunan "Şeyx Sənan", "Peyğəmbər " və "Maral " əsərləri, Həbibə Allahverdiyevanın kətan üzərində çəkdiyi "Hüseyn Cavidin portreti" və Qəhrəman Tağıyevin kətan üzərində çəkdiyi "Hüseyn Cavidin məqbərəsi" adlı əsərlər son dövrlərdə muzeyə hədiyyə edilən yeni eksponatlardandır.

Məlumat üçün onu da bildirək ki, hazırda AMEA Naxçıvan Bölməsində "Hüseyn Cavid ensiklopediyası" nəşrə hazırlanır. Nəşrin hazırlanmasında şairin Bakı şəhərindəki ev muzeyi ilə yanaşı, Naxçıvan şəhərindəki ev-muzeyinin fondundan da istifadə olunur.

***Naibə MİRZƏYEVA,***
***Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksinin baş fond mühafizi***

# YAP Nəsimi rayon təşkilatının təşəbbüsü ilə "Salam Şuşa" adlı layihənin növbəti mərhələsi başlayıb




***12 -14 noyabr tarixlərində YAP Nəsimi rayon təşkilatının təşəbbüsü ilə irəli sürülmüş ucqar bölgələrdə yerləşən qaçqın məktəblərlə əməkdaşlıq və təhsilə dəstək üçün "Salam Şuşa" adlı layihənin növbəti mərhələsi başlamışdır.***

Layihənin birinci mərhələsində YAP Nəsimi rayon təşkilatı Bakı şəhəri 247 nömrəli tam orta məktəbin direktoru və müəllimləri Bərdə rayonunda yerləşən Şuşa rayonu 18 saylı tam orta məktəbdə olmuş, gələcək əməkdaşlığın istiqamətləri üzrə müzakirələr aparmışlar. Hazırda layihənin ikinci mərhələsinin icrasına başlanılmışdır. Bu məqsədlə Şuşa rayonu 18 saylı tam orta məktəbin müəllim və şagird heyətindən ibarət komanda Bakı şəhəri 247 nömrəli tam orta məktəbin bir neçə gün qonağı olmuşlar. Tədris prosesində yeniliklərlə tanış olan müəllim və şagirdlər dərslərdə, layihələrdə və müxtəlif sərgilərdə iştirak etmiş, öncədən onlar üçün tərtib olunmuş proqram əsasında ekskursiyalara cəlb olunmuşlar. Belə ki, layihənin icrasında əsas məqsəd təcrübənin bölüşdürülməsi, əməkdaşlıq əlaqələrinin gücləndirilməsidir.

Daha sonra məktəbin həyətyanı sahəsində iki məktəb arasında dostluq nişanəsi




olaraq ağaclar əkilmiş və xatirə bağı, "Şuşa bağı" salınmışdır.

Sonda YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı, Şuşa rayon icra hakimiyyəti başçısının müavini Vüsalə Fətəliyeva, Bakı şəhəri 247 nömrəli məktəbin direktoru Nihal Hacıyeva və qonaqlar Şəhidlər Xiyabanını, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etmişlər.

***ZÜMRÜD***

# Nizami rayonunda YAP-ın yaradılmasının 26-cı ildönümü qeyd edilib



***Dünən Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü münasibətilə YAP Nizami rayon təşkilatı "EKOL" Mühəndislik Xidmətləri QSC ərazi ilk partiya təşkilatında tədbir keçirib.***

Dövlət himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümünə həsr olunan film nümayiş etdirilib.

Filmin nümayişindən sonra çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib ki, Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi təşkilatları arasında bərabəri olmayan bir partiyadır: "Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı 1993-cü il sentyabrın 11-də Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun akt zalında 76 nəfərin iştirakı ilə yaranıb. Bu gün isə rayon təşkilatının sıraları kəmiyyət və keyfiyyət baxımından sürətlə genişlənir. Hazırda 143 ərazi ilk partiya təşkilatında 14 minə qədər insan birləşib".

Tədbirdə çıxış edən "Ekol Mühəndislik Xidmətləri" QSC-nin baş direktoru Ramil Əliyev bildirib ki, Yeni Azərbaycan Partiyası xalqın mənafelərinə xidmət etmək, ölkəmizin qarşısında duran məsələləri həll etmək üçün zamanın tələblərinə uyğun olaraq zərurətdən yaranmış bir partiyadır.

Tədbirdə digər çıxış edənlər diqqətə çatdırıblar ki, Prezident İlham Əliyevin doğma, müstəqil ölkəmizin inkişafı, ölkə əhalisinin



sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi genişmiqyaslı tədbirlər, onun real nəticələri partiyanın hər bir üzvü qarşısında daha məsul vəzifələr qoyur.

Sonda partiyaya qəbul edilmiş yeni üzvlərə vəsiqələr təqdim edilib, bir qrup partiya fəalı isə rayon təşkilatının ictimai-siyasi həyatında aktiv iştirakına görə fəxri fərmanla təltif olunub.

***Rəfiqə HÜSEYNOVA***

# “Yeni Azərbaycan Partiyası-26: xalqa, dövlətə xidmət nümunəsi”

*Bu mövzuda YAP Masallı rayon təşkilatında tədbir keçirilib*

Dünən YAP Masallı rayon təşkilatının tədbirlər planına uyğun olaraq Yeni Azərbaycan Partiyasının yaranmasının 26-cı ildönümü münasibəti ilə “Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır” devizi altında silsilə tədbirlər həyata keçirilib. YAP Masallı rayon təşkilatı aparatında “Yeni Azərbaycan Partiyası-26: xalqa, dövlətə xidmət nümunəsi” mövzusunda növbəti tədbir keçirib.





Tədbir iştirakçıları ilk öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə tər gül-çiçək dəstələri düzərək, əziz xatirəsini yad ediblər. Həmçinin, tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev bu əlamətdar gün münasibəti ilə tədbir iştirakçılarını təbrik edib, partiyanın keçdiyi tarixi yoldan danışıb: “Bu, həmin ərəfə idi ki, Azərbaycanda xaos hökm sürürdü, dövlət büdcəsi talan olunmuşdu, ölkədə hər addımbaşı cinayətlər törədilirdi. Müstəqil respublika elan olunsa da, bu müstəqilliyi qoruyub-saxlamaq qeyri-mümkün bir hala düşmüşdü. Azərbaycan xalqının çıxılmaz durumda olmasına baxmayaraq, o vaxt iqtidarda olanlar ancaq öz şəxsi niyyətlərinə, şəxsi arzularına xidmət edirdilər. Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq, ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Bu səbəbdən də, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar “SƏS” qəzeti vasitəsilə Ona müraciət ünvanladılar. 21 noyabr 1992-ci ildə Naxçıvanda YAP-ın təsis konfransı keçirildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi”.

Rayon təşkilatının sədri S.Əliyev çıxışında diqqəti ölkəmizin əldə etdiyi uğurlara, sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərə yönəldərək bildirib ki, bu uğurların əsasında dövlətimizin qurucusu və memarı, Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasət dayanır.

YAP Masallı rayon təşkilatının Şura üzvü Əfrail Fərziyev çıxış edərək bildirib ki, Azərbaycanın ağır günlərində yaranmış YAP üzərinə götürdüyü missiyanı şərəflə yerinə yetirdi.

Tədbirdə Şatıroba ərazi ilk partiya təşkilatının sədri Ülviyyə Səfərova, gənc YAP üzvü Əziz Cankişizadə, rayon Ağsaqqallar Şurasının sədri Ələşrəf Niftiyev, “Tərəqqi” medallı əməkdar müəllim Mirqabil Hüseynov, veteran YAP üzvlərindən Rafiq Bağırov və başqaları çıxış edərək partiyanın yaranma tarixindən və xalqımız qarşısında misilsiz xidmətlərindən ətraflı bəhs ediblər.

Tədbirin yekununda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya üzvlərinə rayon təşkilatı tərəfindən fəxri fərmanlar, qiymətli hədiyyələr, eyni zamanda, partiya sıralarına yeni qəbul olunanlara üzvlük vəsiqələri təqdim edilib.

**RƏFİQƏ HÜSEYNOVA**



# Biləsuvar rayonunda Yeni Azərbaycan Partiyasının yaranmasının 26-cı ildönümü münasibətilə tədbir keçirilib



***Dünən Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının yaranmasının 26-cı ildönümü ilə əlaqədar partiyanın qərargahında tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyev partiyanın keçdiyi tarixi yoldan, Azərbaycan dövlətçiliyinin inkişafında partiyamızın xidmətlərindən danışıb: “Ulu Öndər Heydər Əliyev Öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirib və xalqımızın taleyində silinməz izlər qoyub.***

Bu izlərdən biri də Yeni Azərbaycan Partiyasıdır. Azərbaycan Prezidenti İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyası bizim qarşımızda xalqımıza, dövlətimizə sədaqətlə xidmət etmək, həyatda fəal olmaq və Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasında yaxından iştirak etmək kimi önəmli vəzifələr qoyur”.

K.Mirzəyev onu da vurğulayıb ki, Yeni Azərbaycan Partiyasının Biləsuvar rayon təşkilatı respublikada Naxçıvandan sonra yaranan ilk partiya təşkilatlarında olub: “Tərkibində 5359 nəfər partiya üzvünü birləşdirən Biləsuvar rayon təşkilatı respublikada həmişə ictimai-siyasi fəallığı ilə seçilib. YAP Biləsuvar rayon təşkilatının üzvləri bu gün də ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ətrafında sıx birləşiblər”. Tədbirdə YAP Biləsuvar rayon təşkilatının aparat rəhbəri Əjdər Niftiyev çıxış edərək ərazi ilk partiya təşkilatlarının qarşısında duran vəzifələr barədə məlumat verib. Tədbirdə partiya üzvlərindən Gülmalı Gülalıyev, Rüstəm Əliyev, Ağabəy Ağayev və başqaları çıxış edərək bildiriblər ki, Yeni Azərbaycan Partiyasının güclü siyasi təşkilat kimi formalaşması, ölkəmizin ictimai-siyasi həyatında iqtidar partiyası kimi aparıcı yer tutması dövrün məntiqi reallığı idi.

Sonda YAP sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim edilib.

**R.KAMALQIZI**

## Azərbaycan meyvə-tərəvəz ixracını artırıb



Bu ilin yanvar-oktyabr aylarında Azərbaycan 405,5 milyon ABŞ dolları dəyərində 443,2 min ton meyvə-tərəvəz ixrac edib. AZƏRTAC Dövlət Gömrük Komitəsinə istinadla xəbər verir ki, bu göstərici ötən ilin eyni dövrünə nisbətən 30,2 milyon dollar və 35 min ton çoxdur. Hesabat dövründə meyvə-tərəvəz ixracı ölkənin ümumi ixracının 2,5 faizini təşkil edib.

# Abunəçilər “Nar”-ın Müştəri xidmətinin fəaliyyətini yüksək qiymətləndirir

nar

Müştəri xidmətlərinin davamlı inkişaf strategiyasına sadiq qalan “Nar” daim müştərilərinə göstərdiyi yüksək xidmətləri ilə seçilir. Son nəticələrə əsasən, Çağrı Mərkəzinə müraciət etmiş abunəçilər üçün göstərilmiş xidmət səviyyəsi ilin əvvəli ilə müqayisədə 20% artıb. Çağrı Mərkəzinə müraciət etmiş “Nar” abunəçilərinin 88%-i onlara göstərilən müştəri xidmətlərini ən yüksək balla qiymətləndiriblər. Bu yüksək göstərici, “Nar” abunəçilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, eləcə də innovativ həllərin tətbiqi nəticəsində mümkün olub.

“Nar” abunəçiləri yüksəkkeyfiyyətli müştəri xidmətlərindən özlərinə rahat olan istənilən üsulla - Çağrı Mərkəzinə zəng etməklə, şəxsi kabinet, sosial şəbəkələr, SMS və elektron poçt üzərindən yazmaqla yararlana bilər.

Qeyd edək ki, Çağrı Mərkəzinə (777) zəng edən abunəçilərə göstərilən bütün xidmətlər sosial media üzərindən də təmin edilir. “Nar” öz müştəri xidmətlərini bilavasitə sosial media üzərindən təqdim edən ilk və yeganə mobil operatordur. Bunun üçün ayrılan xüsusi komanda yalnız sosial media üzərindən gələn sorğuları qısa zaman ərzində cavablayır. Abunəçilər bu xidmətlərdən istər nar.az internet səhifəsində olan şəxsi kabinetləri vasitəsilə, istərsə də “Facebook”, “Twitter” və digər sosial şəbəkələr üzərindən yararlana bilirlər. Belə ki, mobil operatorun abunəçiləri sosial şəbəkələrdən istifadə etməklə bir çox xidmətlərdən (tarifin dəyişilməsi, internet paketin artırılması, yeni xidmətlərə abunə olma və ya abunəliyin dayandırılması, nömrələr üzərində əməliyyat, gələn zənglər və mesajlar haqqında ətraflı məlumat, telefon, ruter və digər cihazların ayarlarının sazlanması, texniki problemlərin həlli, endirim kampaniyaları, keçirilən müsabiqə və tədbirlərdə iştirak və s.) yararlana bilirlər.

Mobil operatorun müştəri xidmətləri haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək olar.

# Ekologiya sahəsində görülən işlər ətraf mühitin qorunmasına xidmət edir

## *Son 15 ildə Azərbaycanda ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpası istiqamətində mühüm nailiyyətlər əldə olunub*

***Hər kəsə bəlli olan fakt ondan ibarətdir ki, bu gün dünyanı narahat edən başlıca problemlərdən biri də ekologiya problemidir. Zaman-zaman bu problemin həlli istiqamətində beynəlxalq təşkilatlar müəyyən qərarlar qəbul edib, tövsiyələr irəli sürüblər. Ancaq elmi-texniki tərəqqi yeni dövrün, yenilikləri bu problemə insanların həssaslıqla yanaşmasına imkan vermirdi. Nəhayət, insanlar təbiətə münasibətlərini dəyişməyəcəkləri, onun ehtiyatlarından səmərəsiz istifadəyə son qoymayacaqları təqdirdə, bu prosesin onların özlərinə qarşı çevriləcəyini və arzuolunmaz nəticələrə gətirib çıxaracağını anladılar. Bu baxımdan, 1972-ci ildə Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin İsveçin paytaxtı Stokholmda keçirilən iclasında 5 iyun tarixinin Dünya Ətraf Mühitin Mühafizəsi Günü kimi qeyd olunmasına qərar verilmişdir. O vaxtdan etibarən hər il bu gün bütün dünyada təntənəli şəkildə qeyd olunur.***

Dünya Ətraf Mühitin Mühafizəsi Gününün hər il geniş tədbirlərlə qeyd edildiyi Azərbaycanda da ətraf mühitin mühafizəsi və ekoloji problemlər daim diqqət mərkəzindədir. "Ətraf mühitin mühafizəsi haqqında" 15 iyun 2000-ci il tarixdə Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanmış Sərəncam təsdiq edir ki, Azərbaycanda ekologiya ilə bağlı ciddi tədbirlər görülür. Dahi Öndərimizin siyasətini uğurla davam etdirən, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi istiqamətində də mühüm işlər görülür. Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına dair milli proqramlar, həmçinin Azərbaycanda hidrometeorologiyanın inkişafına dair Dövlət Proqramı uğurla yerinə yetirilir. Prezident İlham Əliyevin 2010-cu ili ölkədə "Ekologiya ili" elan etməsi bu sahəyə diqqəti daha da artırmışdır. "Ekologiya ili" çərçivəsində, eləcə də sonrakı illərdə ölkəmizdə milyonlarla ağacın əkilməsi, yeni parkların salınması və dövlətimizin başçısının özünün bu kampaniyalarda iştirakı ətraf mühitin qorunmasına xüsusi diqqətin göstəricisi sayıla bilər.

### Yeni texnologiyalar zərərli fəsadlar yaradır

Araşdırmalar zamanı məlum olur ki, dünyada əkinçilik və heyvandarlıqda gedən proseslər fermerləri qane etmir. Əkinçilikdə yeni texnologiya adı altında zərərli kimyəvi gübrələrdən istifadə edilir və nəticədə yetişdirilən meyvə tərəvəzlərin tərkibi süni şəkildə dəyişdirilərək insanlarda müxtəlif xəstəliklərin yaranmasına gətirib çıxardığı artıq qida təhlükəsizlik qurumlarına məlumdu. Heyvandarlıqda gedən proseslər, sağlam iribuynuzlu və mal-qara saxlanmasında isə fermerlər ətraf mühitin pozulması ucbatından heyvanların qulluğu çətinləşib. Şirin suyun çatışmaması, ekoloji təmiz yemlərin olmaması, çirkli yağış yağması otlaqların yararsız olduqlarını və heyvanların artmaması fermerlərə böyük çətinliklər yaratdıqlarını bəyan edirlər. O cümlədən, quşçuluqda yaranan ekoloji problemlər son illərdə quş qripinin mövcudluğu təsərrüfata milyonlarla dollar ziyan vurur. Qlobal Ekologiya Fondu təsərrüfatın ətraf mühitdə inkişafı üçün yeni layihələr təqdim edir. Çıxış yolunu və bu istiqamətdə geni dəyişdirilmiş bitkilərdən istifadə etməmək və kimyəvi gübrələrdən istifadə edilməməsini tələb edir. Enerji sektorunda ekoloji problemlər mövcud olduğunu bəyan edən Qlobal Ekologiya Fondu dənizdə, quruda çıxarılan neftin ətraf mühitə axıdılmasını böyük cərimələr tətbiq olunacağını bildirib. Bildiyimiz kimi, neft enerji daşıyıcı olaraq ətraf mühitə, nəsli kəsilməkdə olan quş və balıqların məhvinə yol açır. Bunun qarşısını almaq məqsədi ilə Birləşmiş Millətlər Təşkilatında əksər ölkələrin səs çoxluğu ilə ətraf mühiti qorunması məqsədi ilə qərar çıxarıb. Qərara əsasən hər hansı neft şirkəti neftdaşıyan bunkerlərdə neft məhsulunu okeana, dənizə və digər quru sahələrə daşıyarkən dağıdarsa, o şirkəti milyonlarla cəriməyə olunacağı qaçılmaz olacağına səs veriblər. Dünyada müxtəlif enerji daşıyıcıları sırasında atom elektrik stansiyaların ömrü bitmiş sayılan ölkələrə qarşı ciddi şəkildə etiraz olaraq bağlanmasını tələb edirlər. Azərbaycan Respublikasının Hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Azərbaycanın İkinci Milli Məlumatları üçün layihə təklifinin hazırlanması məqsədi ilə özünüqiymətləndirmə" layihəsinin həyata keçirilməsi üçün Qlobal Ekologiya Fondu tərəfindən ayrılan qrant üzrə sənədin təsdiq edilməsi barədə 11 aprel 2005-ci ildə Prezident İlham Əliyev tərəfindən Sərəncam imzalanmışdır. Bu Sərəncamlar onu göstərir ki, Azərbaycanda ekologiya sahəsində görülən işlər ətraf mühitin qorunmasına xidmət edir.



### Nəcib və xeyirxah layihə - "Hərəmiz bir ağac əkək"

Son 15 ildə Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar əsasında Azərbaycanda ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpası istiqamətində mühüm nailiyyətlər əldə olunmuşdur. Ətraf mühitin qorunması sahəsində uğurlu layhələrin həyata keçirilməsi ilə Azərbaycan təbiətinə yeniliklər gətirilmişdir. Müxtəlif qoruqların yaradılması, Xəzər dənizinin çirkab sulardan təmizlənməsi, meşə və qoruqların mühafizəsi, şirin suyun filtrasiya edilməsi, vəhşi heyvan və quşların qorunması istiqamətində mühüm tədbirlər, sərəncamlar, Qlobal Ekologiya Fondunun uzvü olaraq, müsbətə doğru işlər görülmüşdü. Azərbaycanın ekologiya sahəsində görülən işlər beynəlxalq müstəvidə təqdim olunması sübut edir ki, Prezident İlham Əliyevin imzaladığı sərəncamlar ətraf mühitin qorunması istiqamətində Azərbaycanın rifahını, təbiətini yaxşılaşdırmaq və zənginləşdirmək prinsipi ilə yüksək nəticələr əldə etmişdir. Qeyd etmək lazımdır ki, görülən işlər gələcək nəsillərə ekoloji təmiz mühiti qoruyub-saxlamaq və dünyanın bir parçası olan Azərbaycan nəhəng layihələrə qatılaraq öz prinsipini, iqtisadi gücünü göstərərək, sağlam həyat tərzinin bir nümunəsi kimi təqdim olunur. Heydər Əliyev Fondunun ekologiyanın, ətraf mühitin qorunmasına xidmət edən "Hərəmiz bir ağac əkək" layihəsi də bu sahəyə böyük töhfələr vermişdir. Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bu layihə çərçivəsində ölkəmizdə hektarlarla sahə yaşıllaşdırılmışdır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2011-ci il iyulun 12-dən fəaliyyətə başlayan İDEA - Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Kampaniyası çərçivəsində ölkəmizdə ətraf mühitin qorunması sahəsində görülən işlər Azərbaycanda ekoloji problemlərə verilən önəmin göstəricisidir. Bu gün ölkəmizdə ekoloji problemlərin həllinə, ətraf mühitin mühafizəsi məsələlərinə daha çox diqqət yetirilir. Milli parkların yaradılması işi uğurla davam etdirilir, təbii ehtiyatların qorunması üçün uzunmüddətli dövlət planları nəzərdə tutulmuşdur. Ekologiya və Təbii Sərvətlər Nazirliyi hər il 5 iyun - Dünya Ətraf Mühitin Mühafizəsi Günü ərəfəsində ətraf mühitin qorunması, təbiətdən, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası və mühafizəsi, bioloji müxtəlifliyin qorunub-saxlanılması məqsədi ilə müxtəlif tədbirlər həyata keçirir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ətraf mühitin mühafizəsini həyata keçirən qurumları tərəfindən ötən il ərzində ekoloji qanun pozuntularına görə 2562 akt və 820 protokol tərtib olunmuş və aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün 1095 müddətli məcburi göstəriş verilmişdir. Qanun pozuntusuna yol verdiklərinə görə hüquqi və fiziki şəxslərə qarşı ümumilikdə 6058978.1 manat məbləğində cərimə tətbiq edilmişdir. Ətraf mühitə dəymiş ziyanla bağlı 1956963.47 manat məbləğində iddia qaldırılmışdır. Əmələ gələn tullantıların ətraf mühitə (torpaq, su, atmosfer) atılmasına və axıdılmasına görə hüquqi və fiziki şəxslərə, idarə və müəssisələrə 1097725.22 manat məbləğində ödəmə tətbiq edilmişdir. Tədbir görülməsi üçün hüquq mühafizə-orqanlarına göndərilmiş 172 işdən 50-nə, icra qruplarına ünvanlanmış 536 işdən 254-nə, məhkəmələrə göndərilmiş 180 işdən 126-na baxılaraq müvafiq tədbirlər görülmüşdür.

### Azərbaycan nəhəng layihələrə qatılaraq öz iqdisadi gücünü göstərir

Ekoloji təhlükəsizliyin pozulması insanların sağlam ətraf mühitdə yaşamaq kimi konstitusion hüquqnun pozur. Parlament tərəfindən qəbul olunan "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu bu istiqamətdə problemin aradan qaldırılmasına yardımçı olsa da, hesab olunmalıdır ki, hər bir vətəndaş qanunvericiliyin tələblərinə riayət etməli və təbiətin mühafizəsi, atmosferin çirklənməsinin qarşısının alınması istiqamətində əməli addımlar atmalıdır. Çünki atmosferin qorunması, təbiətin mühafizəsi üçün təkcə bir ölkə yox, bütün bəşəriyyət qolunu çırmayıb iş görməlidir. Atmosferin çirklənməsinin qarşısını almaqdan ötrü yaşıllıqlar artırılmalı, təbii meşə zolaqları qorunmalı, sənaye müəssisələrindən atmosferə buraxılan zərərli qazların miqdarına nəzarət olunmalıdır. Nəzərə almaq lazımdır ki, hazırda bütün ölkə üzrə havanın çirklənməsinin 70 faizi avtonəqliyyat vasitələrinin payına düşür. Son statistikaya görə, təkcə Bakıda 550 mindən artıq avtomobil qeydiyyatdadır. Bu baxımdan ölkəmizdə atmosfer havasının daha da təmiz olması üçün hər birimizin üzərinə vəzifələr düşür.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib ki, ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə olunması, insanların sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin edilməsi ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir: "Azərbaycan qədim neft ölkəsidir. Dünyada ilk dəfə sənaye üsulu ilə neft XIX əsrdə Azərbaycanda hasil edilib. XX əsrdə isə ilk dəfə olaraq, dünyada dəniz yataqlarından neft yenə də Xəzər dənizində, Azərbaycanda hasil olunub. Lakin inkişaf, təəssüf ki, özü ilə bərabər problemlər də gətirir. Sirr deyil ki, əsas ekoloji problemlər keçmişdən miras qalıb. Bu gün Azərbaycan müstəqil dövlət kimi inkişaf edir və ekoloji problemlərin həllinə müstəqil şəkildə müəyyənləşdirdiyi strategiya ilə yanaşır. Hazırda çirklənən ərazilərin bərpası, tullantıların idarə olunması, təbii ehtiyatların mühafizəsi və səmərəli istifadəsi, yaşıllıq ərazilərinin miqyasının genişləndirilməsi və s. istiqamətlərdə tədbirlər həyata keçirilir. Biz şübhə etmirik ki, görülən və görüləcək tədbirlər nəticəsində yaxın zamanlarda Bakı və Abşeron yarımadasında və ölkəmizin digər yerlərində ekoloji vəziyyət böyük dərəcədə yaxşılaşdırılacaq. Azərbaycan vətəndaşları təmiz ekoloji şəraitdə yaşayacaqlar".

***Zakir Rəhimli***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinə.*

# Əli Kərimli-Qənimət Zahidov xronologiyası

## Hər ikisi iflasa məhkumdur

*Həmişə belə görmüşük, belə eşitmişik ki, yaxşı, xeyirxahlara rəhmət, iblis, şeytan cildinə girənlərə isə lənət oxunub. Dünyada etdiyi çirkin və xəyanətkar əməlləri ilə ön sırada gedən AXCP sədri Əli Kərimlinin satqınlıq xronologiyasına nəzər salmaq kifayətdir. Azərbaycanın böyük filosof-şairi Hüseyn Cavidin "İblis"ində iblisin nə olduğunu aydın şəkildə göstərərək yazır ki, "İblis nədir? Cümlə xəyanətlərə bais, ya hər kəsə xain olan insan nədir? İblis!".*



AXCP sədri Ə.Kərimli siyasi fəaliyyəti ilə hər an Azərbaycanın milli maraqlarını satmağa hazır olduğunu nümayiş etdirən iblisdir. O və müttəfiqləri yalançı, qısa ömürlü birliklər yaradaraq pafoslu çıxışlar edir, əslində isə bir-birlərindən xarici pulverənlərə kompromat ötürmək uğrunda mübarizə aparırlar. Və onun siyasi fırıldaqçılıq üsullarına şeytan da həsəd aparar. Bunu uzun müddət Ə.Kərimli ilə bir cəbhədə təmsil olunanlar da bəyan ediblər. AXCP sədri tək öz xalqına, vətəninə deyil, amalına, məsləkinə, dostluğuna, yoldaşlığına qarşı da xəyanət yolu tutub.

### Əli Kərimli mənəviyyatsızlıq simvoludur

Bizcə Ə.Kərimlinin mənəviyyatsızlıq simvolu olmasını isbat etməyə ehtiyac yoxdur. Çünki onun Azərbaycana qərəzli mövqedə dayanan, xarici ölkələrin əlində oyuncaq fiqura çevrilməsi, təxribatçı qüvvələrlə birgə çalışmasını təsdiqləyən çoxsaylı faktlar mövcuddur. "Siyasi karyerasında", xüsusilə, ermənilərlə işbiriyini təsdiq edən amillər istənilən qədərdir və bu barədə onun əməllərinin sübuta ehtiyacı yoxdur. Dağıdıcılıq, ziyankarlıq, xəyanət missiyasını daim tətbiq edərək düşərgədə qarışıqlıq yaradan Ə.Kərimlini silahdaşları belə heç vaxt önəmli fiqur kimi qəbul etmirlər. Azərbaycanda "Demokratiyanın İnkişafı Fondu"ndan aldığı pulları mənimsəyərək başqalarına böhtan atmaqla məşğul olan, "erməni lobbisinin fəxri üzvü, dayısı" adını daşımaqdan utanmayan bu "siyasətçi" həmişə şəxsi maraqlarına görə dövlətçiliyimizə xələl gətirib. Bu, həm də o Ə.Kərimlidir ki, ermənilərdən başqa dünyada məşhur olan terrorçu qrup və islami təşkilatlarla da əlaqə yaradaraq Azərbaycana qarşı böhtan kampaniyasında fərqləndiyi üçün "xidmətləri" də əvəzsiz qalmır.

### Ələkçinin qıl verəni- Qənimət Zahid

Dövlət maraqlarına qarşı çirkin xəyanətkar fəaliyyət yolu tutan AXCP sədri Ə.Kərimli ən yaxın tərəfdaşlarından olan erməni lobbisinin çirkli pulları hesabına təxribatlar törətməyə çalışıb. Antimilli ünsürlərin "lideri" Əli Kərimlinin dirijorluğu ilə "fəallaşan" Qənimət Zahidov, "Meydan TV"nin icraçı direktoru Emin Milli, onların ətrafındakı fərari tör-töküntüləri yenə də nə qədər iyrənc və alçaq olduqlarını nümayiş etdirməkdədirlər. AXCP sədri Ə.Kərimlini bu günlərdə Qənimət Zahid göndərdiyi "naməsinə" əsasən hamını manqurtlar yuvası AXCP-yə üzv olmağa çağırış etməsi, doğrudan da, həyasızlığın 100 faizidir. Əgər satqınçılıq və xarici qüvvələrə nökərçilik etməklə aldığı pulları öz ailəsinə xərclədiyi halda bu gün həyasızcasına hansı üzlə şəhid ailələrinin "dərdinə qalmaq istəyir?"

Q.Zahidovun gizləndiyi Fransa o dövlətdir ki, hər zaman milli məsələlərdə Azərbaycanın əleyhinə çıxışlarla işğalçı Ermənistana dəstək verib. Məntiqdən belə çıxır ki, Q.Zahidovu saxlayanlar ya ermənilərdir, ya da... Erməni lobbisinin antimilli maşası - olan zahidlər kimi ünsürlər bir zatın Ə.Kərimlinin redaktəsi ilə hərəkət edirlər. Və bu gün Qənimət Zahidov üzdəniraq "Azərbaycan saatı" və onların cərgəsində yer alan bəzi internet media orqanları bu gün də ölkəmizə qarşı şər-böhtan kampaniyasını davam etdirməkdədirlər.

Kor-kar olan Ə.Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənlə, Qənimət Zahidov və ... bu kimi ünsürlər bu gün Azərbaycan dövlətinin bütün sahələrdə, o cümlədən ölkəmizdə olan şəhid və əlil ailələrinə göstərdiyi diqqət və qayğını görmək iqtidarına malik deyil. Çünki görməyən gözlər kor, kar olan qulaqlar kardır. Və özgənin yalı ilə bəslənənlər bilməlidirlər ki, xalqımız görür, eşidir və şahid olur. Çünki xalq-dövlət birliyi var və daimidir!

**Rəfiqə HÜSEYNOVA**

# "Google" nəyə görə Elimdar Əliyevi reket kimi tanıdır?



Son günlər "Media klub"u adlı saxta qurumun reket və şəxsi mənfəət güdən "jurnalistləri"nin gah nala, gah da mıxa döyəcləmələri əslində, ictimai rəydə də müəyyən anlaşılmazlıqlar yaradır. Anlaşılmazlıqlardan biri də budur ki, Arif Əliyev, Elçin Şıxlı, Qulu Məhərrəmli, Mehman Əliyev, Elimdar Əliyev, Zahir Əzəmət və onlara dəstək verənlər bir tərəfdən "Media klub"un fəaliyyətini guya ölkə mətbuatına olan "ictimai etimadın bərpasına kömək" məqsədi ilə əlaqələndirirlər, başqa tərəfdən, dövləti və onun rəhbərini "sevdiklərini" bəyan edirlər. Maraqlısı da budur ki, əgər onlar gerçəkdən də dövləti və onun rəhbərini sevirlərsə, onda nəyə görə, Onun istiqamətləndirdiyi və nəhəng jurnalistlər ordusunun dəstəklədiyi media siyasətinə qarşı əks-dərnək yaradırlar?

### "Media klub" bu relliğa kölgə salmaq məqsədi daşıyır

Azərbaycanda azad medianın formalaşması mövcudluğunda hələ ötən ilin 19 aprelində əks-cəbhə marağında təsis edilmiş "Media klub" bu rellığa kölgə salmaq məqsədi daşıyır. Ümumiyyətlə, həmin dərnək yaradılarkən, verilən "bəyanat" da bütün bunları təsdiq etməkdədir. Məsələn, deyilir ki, "klubun məqsədi ölkənin müstəqil, sağlam informasiya məkanının formalaşdırılmasıdır", yaxud digər bir fikirdə deyilir ki, "Media klub"un yaradılması ideyası Azərbaycan informasiya məkanının üzləşdiyi, ənənəvi KİV-in böhranı və sosial şəbəkələrin manipulyasiya sisteminə çevrilməsi cəhdləri ilə səciyyələnən çağırışlarla şərtlənib" (???!!!-R.R.)

Sual olunur: budurmu dövlətə və dövlət başçısına "sevgi"? Əgər burada xarici donor təşkilatların, xüsusilə "Soros" fondunun müdaxiləsi yoxdursa, bir zəhmət, adıçəkilən dərnəyin ona-buna işləyən nökərləri bunu real sübutlarla sübut etsinlər və Elimdar adlı reket və şantajçını ortaya atıb, onun "xidmətlərindən" yararlanıb, özlərini "süddən çıxmış ağ qaşıq" kimi ictimai rəyə zorla sırımasınlar.

### Elimdarın Surxayla, Hikmətlə, Habillə də heç bir fərqi-filanı yoxdur

Yeri gəlmişkən, E.Əliyevin adını "Google" axtarış sistemində yazarkən, nədənsə onun da adı digər reketlərin də adları ilə yanaşı çıxır. Məsələn, Cinayət Məcəlləsinin 182.2.1-ci (hədə-qorxu ilə tələb etmə, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 182.2.2-ci (hədə-qorxu ilə tələb etmə, təkrar törədildikdə), 182.2.4-cü (hədə-qorxu ilə tələb etmə, xeyli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə) və 302.1-ci (əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olmayan şəxslər tərəfindən belə tədbirlərin keçirilməsi, habelə, əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olan şəxslər tərəfindən həmin tədbirlərin qanunvericiliklə müəyyən edilmiş əsaslar olmadan keçirilməsi şəxsin hüquq və qanunla qorunan mənafelərinin əhəmiyyətli pozulmasına səbəb olduqda) maddələri ittiham olunan Hikmət Nəcəflinin, yaxud, eyni maddələrlə ittiham edilmiş "Bizim dövr" qəzetinin baş redaktoru Surxay Əliyevin və "Gündəlik Bakı"nın baş redaktoru olmuş, yenə də eyni ittihamlarla barəsində cinayət işi qaldırılmış Habil Vəliyevin...

### "Fas", "aport", "Fu" komandalarına izafi canfəşanlıq, yaxud, Soros dayılarının sümükləri qurtararsa...

İndi isə keçək digər məsələyə. Əlində heç bir faktı, sübut və dəlili olmayan E.Əliyevin, sözün əsl mənasında, dördayaqlılar cinsindən olan "Bulmastif" kimi ortaya düşüb Soros dayısının "fas" əmrinə ram olması təəccüb doğurmur. Bu növ dördayaqlıların xas olduqları xasiyyətlərini izah edən ensiklopedik məlumata nəzər salarkən nə oxuyuruq? Bu kimi cinslər aqressivdir və küçük vaxtlarından tərbiyə olunmalıdırlar. Əks halda, onların xarakterlərinin dəyişdirilərək tərbiyə edilməsi mümkünsüz olur. Hər halda, Soros dayılarından sümük qırığı umanların da tərbiyə olunmaları məsələsi artıq çox gecdir. Görünür, bu səbəbdən dayılarının onlara verdiyi "fas", "aport", "fu" komandalarına izafi canfəşanlıqla, həm də çox aqressivcəsinə riayət edirlər. Lakin bu komandaları icta edərkən, unutmamalıdırlar ki, bir gün Soros dayılarının da sümükləri qurtara, bitib-tükənə bilər.

**Rövşən**

# "Quska"yla eyni naranı kimlər bölüşə bilər?

## Yaxud dünya böyük olsa da, sərt tərəfləri də var

***Avropada "siyasi mühacir" adı altında var-gəl edib, Azərbaycanın dövlətçilik maraqlarına qarşı çıxan Orduxan Teymurxanın barəsində üzə çıxan faktlar ictimailəşdikdən sonra da vətənşivənlik kontekstindən çıxış etməsi sağlam düşüncəli insanlarda ona qarşı ikrah hissini daha da çoxaldır. Çünki O.Teymurxan onun barəsində çıxan çoxsaylı faktlara rəğmən, sözün əsl mənasında, siyapurluq edir, agentlik etdiyi bəlli dairələrin xidmətlərində dayanmaq və bunun müqabilində daha çox kirli pullar qazanmaq üçün daha da həyasızlaşır. Halbuki, onun agent olaraq, "Kentavr" kod adı birbaşa sübuta yetirilmiş reallıqdır.***



### "Quska"nın vaxtilə oğurladığı pulları hesabına haray-şivən salan bu qruplar, o, həbs olunandan sonra çətin vəziyyətə düşüblər

Yeri gəlmişkən, artıq həbsdə olan və "Quska" ləqəbli ilə tanınan Hüseyn Abdullayevin istər O.Teymurxana, istərsə də "Meydan" TV adlı xarici dairələrin xidmətində nökərçilik edən Emin Milliyə göndərdiyi pul-paraların da qaynağının və məqsədinin nə olduğu bəri başdan deməк mümkündür. Xatırlatmaq lazımdır ki, Avropa ölkələrində yaşayan və Azərbaycan əleyhinə çirkin qarayaxma kampaniyaları aparan bir qrup təxribatçılar - Emin Milli, Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rafael Piriyev, Həbib Müntəzir və digər bu kimi şəxsləri dəstəkləyən əsas qüvvənin də, məhz "Quska" olduğu kifayət qədər sübuta yetirilib. Söz yox ki, "Quska"nın vaxtilə oğurladığı pulları hesabına haray-şivən salan bu qruplar, o, həbs olunandan sonra çətin vəziyyətə düşüblər.

### 50 min avro birinə, 22 mini də o birinə

Çünki vaxtilə H.Abdullayev ilkin olaraq E.Milliyə 50 min, O.Teymurxana isə 22 min avro vəsait ayırmışdı. Hətta o, maddi vəsaitin davamlı olacağına da söz vermişdi. Əbəs deyil ki, onların yaşayış tərzi və həyatı normal əxlaqa sığmadığı üçün, məhz bu cür ləyaqətsiz və şərəfsiz tapşırığı canbaşla qəbul edib işə girişməyə razılıq vermişdilər.

Yəqin ki, çox qısa zamanda elə O.Teymurxan və yandaşlarını da "Quska"nın aqibəti gözləyəcək. Çünki dünya böyük olsa da, onun sərt tərəfləri də var. Daha dəqiq desək, bir də gözlərini açıb-görəcəklər ki, Bakıda, Kürdəxanı təcridxanasında "Quska"yla eyni naranı bölüşürlər. Hər şey ola bilər əslində...

**Rövşən RƏSULOV**

# Ulu Öndər Heydər Əliyevin Azərbaycanda tolerantlıq mühitinin və insan haqlarının müzakirəsinin möhkəmləndirilməsində xitmətləri

***Təsadüfi deyildir ki, müstəqillik qazandığımız ilk günlərdən başlayaraq, özünün uzaqgörən siyasəti ilə Ümummilli Lider Heydər Əliyev özünün milli təəssübkeşliyi sayəsində dövlətçiliyin, milli-mədəni dəyərlərimizin dirçəldilməsinə və inkişafına, yeni demokratik meyillərin formalaşmasına, ana dilimizin, ədəbiyyat, mədəniyyət, təhsilin hərtərəfli inkişafına böyük qayğı ilə yanaşdı.***

Müstəqillik tariximiz, Azərbaycan xalqının öz milli-mənəvi köklərinə qayıdışı, milli ruhuna uyğun həyat və düşüncə tərzinin formalaşması illəridir. Uzun illər ərzində məqsədyönlü şəkildə həyata keçirilən milli-mənəvi köklərdən uzaqlaşma siyasətinin, mövqeyini düzgün müasir müsəlman yadlaşma prosesinin nəticələrinin aradan qaldırılması istiqamətində prioritet yolların düzgün müəyyənləşdirilməsi öz nəticəsini gözlətmədi. Dünyanın qədim xalqlarından biri kimi azərbaycanlıların malik olduğu yüksək mənəvi-əxlaqi keyfiyyətlərin qorunub saxlanılması, "keçid dövrü" kimi adlandırılan mürəkkəb bir zamanda dəyərlərin varisliyinin təmin edilməsi nə qədər çətin olsa da, Ulu Öndərin fədakar qayğı və himayəsi altında böyük uğurla nəticələndi. Ümumbəşəri və milli-mənəvi dəyərlərin ahəngdar sintezinə nail olmaq istiqamətində möhtəşəm addımlar atıldı. Ulu Öndərin milliliklə ümumbəşəriliyin vəhdətini nəzərə alaraq müəyyənləşdirdiyi azərbaycançılıq ideologiyası müstəqil dövləti yaratmaq və yaşatmağın bütün prinsiplərinin təcəssümünə çevrildi. Ulu Öndər Heydər Əliyevin Dünya Azərbaycanlılarının I Qurultayında söylədiyi: "Bizim hamımızı, azərdin siyasətini dərindən qiymətləndirməliyik. Bu gün islam qloballaşma prosesinə güclü müqavimət göstərir. Din iqtisadiyyat, siyasət və mədəniyyət kimi digər sahələrlə müqayisədə qloballaşmanın təsirinə az məruz qalmaqdadır. İslam bu gün yalnız qloballaşmaya qarşı çıxmır, o həm də qloballaşmaya praktik və konseptual səviyyədə olan tək real alternativ kimi çıxış etməkdədir. Buna görə də, bir çox tədqiqatçıların da göstərdiyi kimi müasir dövrdə heç bir sahə qloballaşmaya bu qədər güclü təsir göstərmir. İslam qloballaşmada fərqli bir hadisə kimi təzahür etməkdədir. Onun getdikcə siyasi çalarlar alması Şərqdə Qərbin "qərbləşmə" kimi dəyərləndirdiyi modern nümunələrini sual altına alır. Bu mənada, islam müsəlman ölkələrində ciddi qüvvə hesab edilən ABŞ və Avropa ilə rəqabət aparmaqdadır.

Bəllidir ki, qloballaşma yalnız Qərb modelinin nümunəsində iqtisadiyyatın və cəmiyyətin vəhdətləşməsinə istiqamətlənməmişdir. Dünya həm də informasiyanın, texnologiyaların, elmin və biliyin sürətlə yayılması ilə də qloballaşmaqdadır. Bu mənada, dünya istəsə də, istəməsə də qloballaşmaqda davam edir. Bu mənada, sosial-iqtisadi cəhətdən inkişaf edən Azərbaycan Respublikası baş verən proseslərdən kənarda qala bilməzdi.

8 sentyabr 2000-ci il tarixində Nyu-Yorkda BMT-nin "Minilliyin sammiti"ndə iştirak edən Ümummilli Lider Heydər Əliyev Baş Assambleyanın təntənəli iclasında çıxış edərkən, Azərbaycanın bu sahədə əhəmiyyətini dəyərləndirərək demişdi: "Azərbaycan qloballaşmanın inkişafına müsbət mənada öz töhfəsini verir. Mənim ölkəm dünya miqyasında geostrateji əhəmiyyətə malik öz coğrafi mövqeləri ilə yaşamış, bütün ömrünü vətəninə və xalqına həsr etmiş Ümummilli Lider Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasında, mədəniyyətimizin inkişafında müstəsna xidmətlər göstərmiş böyük dövlət xadimi olmaqla yanaşı, öz mahiyyətinə və dəyərinə görə milli-mənəvi sərvət olan mədəni irsin müəllifidir. Ulu Öndərin azərbaycançılıq fəlsəfəsinin, humanitar siyasətinin konseptual əsaslarını əks etdirən zəngin mədəniyyətşünaslıq irsinin və maarifçilik fəaliyyətinin tədqiqi və mənimsənilməsi müasir qloballaşma proseslərinin intensivləşdiyi bir dövrdə xüsusilə əhəmiyyətlidir. Vətənini və millətini tarixin ən sərt sınaqlarından çıxaran Ulu Öndər Heydər Əliyev doğma xalqına da dünyəvi, demokratik və hüquqi əsaslar üzərində qurulmuş bir dövlət qoyub getmişdir. Təsadüfi deyil ki, Nyu-Yorkdakı görüşdə Azərbaycanın geostrateji əhəmiyyətini bir daha vurğulayaraq, ölkəmizə qarşı münasibətdə dünyanı daha praqmatik olmağa və yanaşmalarını dəyişdirməyə çağırmışdır. O demişdir: "Əlbəttə ki, respublikamızın rəhbərliyi qloballaşma deyəndə Azərbaycanda beynəlxalq əməkdaşlığı, xoş münasibətləri və dostluğu nəzərdə tutur... Lakin bizim milli mentalitetimizə xas olmayan dəyərlər aşılanmamalı, milli mənliyimizin qorunması prioritet sayılmalıdır". Ulu Öndər Heydər Əliyev doğma xalqının və müstəqil respublikamızın inkişaf meyillərini dəyərləndirmək üçün Nyu-York çıxışından dərhal sonra 2001-ci il yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət edir. Bu müraciəti faktiki olaraq, Ulu Öndərin milli-mənəvi dəyərlərlə bağlı Proqram sənədi hesab etmək olar.

XX əsrdə baş verən tarixi hadisələrə qiymət verərkən, qloballaş-




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

baycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir - ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şeirlərimiz, mahnılarımızdır, xalqımıza mənsub olan adət-ənənələrdir" (5) kəlamı buna sübutdur. Bununla yanaşı Ulu Öndər "Biz müasir dünyada yaşayırıq. Azərbaycan azad, sərbəst və açıq ölkədir, dünyanın bütün ölkələri ilə hərtərəfli əlaqələr qurur və bundan sonra da quracaqdır. Buna görə də, bizim milli-mənəvi dəyərlərimizin ümumbəşəri dəyərlərlə sintezi, birləşdirilməsi xalqımızın mənəviyyatını zənginləşdirib və bundan sonra da zənginləşdirəcəkdir." Bu gün qloballaşma prosesində dinin cəmiyyətdəki mövqeyini düzgün qiymətləndirmək və onun perspektivlərini görmək müasir müsəlman dövlətlərinin sabit inkişafını təmin etməkdə vacib amilə çevrilmişdir. Biz bunu son zamanlar İslam Şərqində baş verən ekstremist dini qruplaşmaların islam bayrağı altında törətdikləri terror hadisələrinin fəsadlarını nümunə kimi də göstərə bilərik. Bu mənada, Azərbaycanda dövlət və din münasibətlərinin tənzimlənməsində, uğurlu siyasətin əsaslarının qoyulmasında Ulu Öndər Heydər Əliyevin quruculuq fəaliyyətini, onun yindən, ehtiyatlarından və potensialından istifadə edərək gələcəyə istiqamətlənən körpü rolunu səmərəli surətdə həyata keçirir."

Müstəqil Azərbaycanda hakimiyyətə qayıdışından sonra Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü düşünülmüş strategiya nəticəsində mühüm sosial-iqtisadi, ictimai-siyasi dəyişikliklər baş vermiş, cəmiyyətin mənəvi ovqatı xeyli zənginləşmişdi.

Xalqımızın mənəvi dəyərlərinin inkişaf etdirilməsində, kənar və yabançı təsirlərdən qorunmasında Ulu Öndər Heydər Əliyevin həyatı və fəaliyyəti, dövlət rəhbəri kimi qəbu etdiyi qərarlar, söylədiyi tarixi nitqlər əvəzsiz rol oynamışdır.

Ulu Öndər Heydər Əliyev mənəvi dəyərlər sisteminə dil, din, adət-ənənə, mədəniyyət, ədəbiyyat, tarixi keçmiş kimi amilləri daxil edir və deyirdi ki, hər xalqın öz adət-ənənələri, milli-mənəvi və dini dəyərləri var, biz də milli-mənəvi, dini dəyərlərimizlə fəxr edirik. Ulu Öndər Heydər Əliyev milli mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub-saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü.

Yüksək dövlətçilik fəaliyyəti dövründə yalnız xalqımızın qayğıma proseslərinin perspektivlərindən söz açarkən, Ulu Öndər öz müraciətində qeyd edirdi ki, başa vurduğumuz yüzillik dünya xalqlarının yaddaşında sürətli elmi-texniki tərəqqi və iki Dünya müharibəsi və milyonlarla insanın tökülmüş qanları ilə, imperiyaların süqutu, müstəmləkə sisteminin dağılması və yeni suveren dövlətlərin yaranması ilə, soyuq müharibə, onun yaratdığı fəsadlar və sülh və əmin-amanlığın qorunmasında kollektiv müqavimətlə yadda qalacaqdır. Müasir dünyanın inkişaf qanunauyğunluqlarını yüksək peşəkarlıqla qiymətləndirən Ulu Öndər Heydər Əliyev qeyd edir ki, hazırkı dünyanın başlıca inkişaf meyilləri mədəni inteqrasiya və qloballaşmadır. Bununla belə, müraciətdən görünür ki, Ümummilli Lider müasir dünyada bəşəriyyətin qaçılmaz yolu olan inteqrasiya və qloballaşmada hər bir ölkənin milli-mənəvi dəyərlərinin nəzərə alınmasını vacib amillərdən hesab edirdi.

Qloballaşma hər şeydən əvvəl milli-mənəvi dəyərlərə ciddi təhlükə yaradır. Ulu Öndər Heydər Əliyevin 2001-ci il avqustun 13-də dövlət televiziyası ilə verdiyi bəyanat məhz milli-mənəvi dəyərlərimizə olan təhlükədən doğan narahatlıqdan irəli gəlmişdi. Bəyanatda Azərbaycan xalqının zəngin mədəni dəyərlərinin, çoxəsrlik tarixə malik adət-ənənələrinin, dünyanın ən qədim və sivil xalqları ilə müqayisə olunacaq mədəni irsinin bütün azərbaycanlılar tərəfindən qorunmasının zəruriliyi öz əksini tapmışdır. Bu bəyanat mənəviyyatımızın saflaşdırılmasında, ona xələl gətirən əməllərin qarşısının alınmasında, zəngin irsimizə münasibətin yaxşılaşmasında, xalqın öz tarixi keçmişinə bağlılığının və milli adət-ənənələrimizə sədaqətin möhkəmləndirilməsində böyük rol oynadı. Ulu Öndər bəyanatında bildirirdi ki, biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli illər boyu sınaqlardan keçmiş bu mənəvi-əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik.

Ulu Öndərin azərbaycançılıq fəlsəfəsini humanitar siyasətin konseptual əsası kimi göstərməsi böyük siyasətin bir hissəsidir. Belə ki, məhz bu konsepsiya dövlətimizin ərazisində yaşayan hər bir insanı dilindən, millətindən, dinindən asılı olmayaraq, vahid azərbaycançılıq ideyası ətrafında birləşməyə sövq edə bilmişdir. Çünki o başa düşürdü ki, məhz bu cür vəhdəti yaratmaqla, həqiqi hüquqi normalara əsaslanaraq, demokratik, hüquqi, dünyəvi dövlət kimi beynəlxalq sistemə inteqrasiya etmək mümkündür.

Fəlsəfə elmləri doktoru Ziba Ağayaeva yazır: "Azərbaycançılıq ideyasının dərk olunmasının əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, mədəni ənənələri zəminində birlik ideyası durur və bu nəinki indi, həm də uzaq gələcəkdə azərbaycanlıların bir çox nəsillərinə xidmət edəcəkdir.

Azərbaycançılıq həyat tərzində, əxlaqda, mədəniyyət və mənəviyyatda, ədəbiyyatda olduğu kimi, dövlətimizin siyasi məfkurəsində təməl prinsiplərdəndir. Əsrlərdən bizə miras qalmış milli-mənəvi dəyərlərimiz dövlətçiliyin nəinki mənəvi, həmçinin, siyasi mövcudluğunun qarantı kimi çıxış edir. Azərbaycanda başlanan yeni tarixi dövrün ümumi səciyyəsini vermək, mənəvi-mədəni inkişaf perspektivlərini müəyyənləşdirmək mənəviyyatının bütün sahələrini əhatə edən problem və perspektivləri ümumiləşdirərək, mükəmməl konsepsiya səviyyəsinə qaldırmağa nail olan Ümummilli Lider bu sahədə strateji inkişafın təməlini qoymuşdur.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

səs

Son səhifə 17 noyabr

## Atadan köçürülən böyrək gəncin həyatını xilas etdi

Yeddi dəfə uğursuz əməliyyat keçirən 19 yaşlı gəncə Respublika Müalicəvi Diaqnostika Mərkəzində (RMDM) atasının böyrəyi uğurla transplantasiya edilib. Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, bu barədə əməliyyatı icra edən RMDM-in böyrək xəstəlikləri və transplantologiya şöbəsinin müdiri, cərrah-uroloq-transplantoloq, tibb üzrə fəlsəfə doktoru Rəşad Şolan məlumat verib: "Uzun illərin hemodializ xəstəsi olan gənc pasiyentimiz müraciət etdiyi bütün mərkəzlərdə dəfələrlə əməliyyat keçirib. Buna baxmayaraq, nəticə uğursuz alınıb. Hətta hemodializə girməsi üçün xəstənin mərkəzi damarları da tromblaşıb. Xəstə klinikamıza müraciət etdikdə çox ağır vəziyyətdə və ümidsiz halda idi. İlk olaraq, xəstə və donor çox ciddi araşdırıldı. Xüsusən də immunoloji testlər və digər müayinələrdən keçəndən sonra xəstə xüsusi yaradılmış konsiliumda müzakirəyə çıxarıldı. Bütün əlaqədar mütəxəssislərin müsbət rəyindən sonra böyrəyin donordan alınması və resipiyentə köçürülməsi üzrə əməliyyatın, eyni zamanda, həyata keçirilməsinə qərar verildi. Xəstəyə və onun donoru olan atasına əməliyyatın riskləri ətraflı izah edildi. Əməliyyatın mürəkkəbliyi də yeddi dəfə uğursuz əməliyyat keçirməklə bağlı yaranmış anatomik problemlərin mövcudluğunda idi. Peşəkar cərrahi və nefroloji komandamızla bərabər bu əməliyyatı da uğurla icra etdik və hazırda xəstənin vəziyyəti yaxşıdır, heç bir fəsad yaşanmayıb. Həm resipiyent, həm də donor eyni dərəcədə sağlam şəkildə evə yola salındı".

## ABŞ-a yağan ilk qar 8 nəfərin ölümünə səbəb olub

Noyabrın 14 və 15-də ABŞ-ın şimal-şərq və bəzi mərkəzi rayonlarına yağan ilk qar azı 8 nəfərin ölümünə səbəb olub. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, yerli hakimiyyət orqanlarının məlumatına əsasən, ölüm halları əsasən buz bağlamış avtomobil magistrallarında baş verən qəzalar nəticəsində meydana gəlib. Missisipi ştatında 46 sərnişini daşıyan avtobus aşıb. Yaralanan sərnişinlərdən ikisinin həyatını xilas etmək mümkün olmayıb. Bəzi rayonlarda qarın qalınlığı 20 santimetrə çatıb, elektrik naqilləri qırılıb. Virciniya, Ohayo, Kentukki və İndiana ştatlarında 300 min nəfər elektriksiz qalıb. Nyu-York ştatında əlverişsiz hava şəraiti ilə əlaqədar 1,6 min aviareys ləğv olunub, 8 mindən çox aviareys isə təxirə salınıb.

## Çin alimləri "tikanlı" kontakt linzalar icad ediblər

Çin alimləri "tikanlı" kontakt linzalar icad ediblər. AZƏRTAC "Zdorovye mail.ru" saytına istinadla xəbər verir ki, Çin alimlərinin yeni ixtirası olan miniatür "tikanlı" kontakt linzalar "həssas işgəncə" kimi səslənsə də, göz xəstəliklərinin müalicəsində əsl inqilab yarada bilər. İtilənmiş kiçik piramidalar su ilə təmas halında yavaş-yavaş əriyən materialdan hazırlanıb. "Tikanlarda" olan dərman səthi qişaya toxunmayaraq birbaşa gözün daxilinə düşür.

İdeya müəlliflərinin fikrincə, bütün prosedur tamamilə ağrısızdır. Hər halda, yeni terapiyanın sınaqdan keçirilməsi zamanı istifadə edilən laboratoriya siçanlarında heç bir narahatlıq əlamətləri aşkar edilməyib. Lakin alimlər bu yeniliyi hələ insan üzərində sınaqdan keçirməlidirlər.

**ELAN**

Leşinskaya Larisa Anatolyevnanın adına verilmiş Bakı şəhəri Nərimanov rayonu Ceyhun Hacıbəyli 30, mənzil 1 ünvanının ÇIXARIŞI itdiyi üçün etibarsız sayılır.

* * *

"EON AVDİT" MMC-nin (VÖEN: 1903378461) Reyestrdən çıxarış sənədi itdiyi üçün etibarsız sayılır.

**BAŞSAĞLIĞI**

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının 2005-2008-ci tədris ilinin məzunları Vüqar Əhmədova əzizi

**Rövşən müəllimin**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

## UEFA-nın maliyyə vəsaiti Azərbaycan klublarının hesabına köçürülüb




2016/2017-ci il mövsümünü əhatə edən UEFA-nın "Həmrəylik ödəmələri və uşaq futbolunun inkişafı" proqramı çərçivəsində qeyd olunan mövsümdə Azərbaycan Premyer Liqasında çıxış etmiş, lakin UEFA Çempionlar Liqası və Avropa Liqasının qrup mərhələsinə vəsiqə qazanmamış klubların hesabına maliyyə vəsaiti köçürülüb. UEFA tərəfindən "Zirə", "Keşlə", "Sumqayıt", "Səbail", "Neftçi", "Kəpəz" və "Qəbələ" klublarının hesabına 507 min 579.57 avro əlavə olunub. UEFA-dan ayrılan maliyyə vəsaiti klublara AFFA-nın vasitəçiliyi ilə köçürülüb.

## Rusiya ilk dəfə voleybol üzrə dünya çempionatına ev sahibliyi edəcək



Voleybol üzrə kişilərdən ibarət komandalar arasında 2022-ci il dünya çempionatı Rusiyada keçiriləcək. Rusiya Voleybol Federasiyasının məlumatında deyilir ki, Beynəlxalq Voleybol Federasiyasının konqresində 2022-ci il dünya çempionatına ev sahibliyi etmək istəyən ölkələrin namizədlikləri səsə qoyulub. Səsvermə nəticəsində Rusiyanın namizədliyi təsdiq edilib. Qeyd olunur ki, turnirin keçiriləcəyi şəhərlər və yarışların vaxtı 2019-cu ilin fevralında Beynəlxalq Voleybol Federasiyasının inzibati şurasında müəyyən olunacaq.

Voleybol üzrə dünya çempionatları hər dörd ildən bir keçirilir. Kişilərdən ibarət komandaların yarışları 1949-cu ildən, qadın yığmalarının turnirləri isə 1952-ci ildən təşkil olunur. Kişilər arasında turnirinin ikisi (1952, 1962) və qadın komandaların yarışlarının üçü (1952, 1962, 1978) SSRİ-də keçirilib. Rusiya tarixində ilk dəfə voleybol üzrə dünya çempionatına ev sahibliyi edəcək.

## İrina Zaretska: "Dünya çempionu olmaq möhtəşəm hissdir"



Dünya çempionu olmaq böyük uğur və möhtəşəm hissdir. Bu uğura nail olmaq idmançıdan güc, hədsiz dözümlülük, yüksək peşəkarlıq tələb edir. Hər bir idmançı zirvədə olmağı arzulayır və bu baxımdan illərlə çəkdiyin zəhmətin bəhrəsini görmək çox xoşdur.

Bunu bir neçə gün əvvəl Madriddə keçirilən dünya çempionatında qızıl medal qazanan İrina Zaretska (68 kq) AZƏRTAC-a məxsusi müsahibəsində deyib. İrina Zaretska "Tokio-2020"yə lisenziya turnirlərinin davam etdiyini bildirərək, növbəti yarışlarda da yüksək nəticə qazanmağın vacib olduğunu bildirib: "Dünya çempionluğu ilə kifayətlənmək olmaz. Qarşıda bizi Olimpiya Oyunlarına lisenziya xalları verən turnirlər gözləyir. Növbəti sınaq Çində keçiriləcək Karate 1 Premyer Liqa turniri olacaq. Var-qüvvəmizi sərf edib potensialımızdan tam istifadə etməyə çalışacağıq. Tokio Olimpiadasında mübarizə aparmaq və maksimum nəticə qazanmaq hər bir idmançının arzusudur. Bunun üçün daha çox çalışmalı və nəticələrimizi yaxşılaşdırmalıyıq".

## "Bavariya" Zidanla danışıqlara başlayıb



Almaniya Bundesliqasında son 6 mövsümün çempionu "Bavariya"da işlər qaydasında getmir. SİA-nın məlumatına görə, Niko Kovaçın rəhbərliyi altında uğursuz çıxış edən komanda Bundesliqada lider "Borussiya"dan (Dortmund) 7 xal geri qalır. Xorvat mütəxəssisin rəhbərliyi altında 11 oyuna çıxan Münhen klubu 6 qələbə qazanıb, 2 heç-heçə edib və 3 dəfə məğlub olub. Nəticələrdən narazı olan rəhbərlik Niko Kovaçla yollarını ayırmağa hazırlaşır. "Bavariya" rəhbərliyinin artıq Zinəddin Zidanla danışıqlara başladığı iddia olunur. Məlumata görə, tərəflər arasında artıq ilk görüş baş tutub. İndi "Bavariya" fransız mütəxəssisdən cavab gözləyir.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**

**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**